RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 169 (9624) 10 avqust 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

# Vahid coğrafi region, ortaq dəyərlər, artan strateji əhəmiyyət



■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana səfəri çərçivəsində avqustun 9-da ölkə paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak və çıxış edib.

■ Dövlət başçısı həmçinin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təltif olunması mərasimində iştirak edib.

■ Prezident İlham Əliyev Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından verilmiş dövlət başçılarının şərəfinə rəsmi qəbulda iştirak edib.

■ İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri avqustun 9-da başa çatıb.

→ 2-3

## Ağdam Sənaye Parkına investisiya qoyuluşu artır

Ağdam Sənaye Parkının təməli dövlətimizin başçısı tərəfindən 2021-ci il mayın 28-də qoyulub. Ərazisində sosial və texniki zonalar, TIR parkı və tikinti materiallarının satışı bazasının yaradılması bölgənin iqtisadi inkişafını sürətləndirmək baxımından mühüm önəm daşıyır. Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, həmçinin soyuducu kameraların yaradılması isə regionun aqrar sektorunun dirçəldilməsinə də əsaslı təsir göstərəcək.

Ağdam Sənaye Parkından daha bir neçə şad xəbər var. Azərbaycanda ilk dəfə Ağdamda elektromobillər üçün şarj cihazları, eləcə də Türkiyənin "Karaca" markalı məişət qabları, sucuq və digər



məhsulların istehsalına hazırlıq hamımızı qürurlandırdı. Xəbərə görə, parkın rezidenti "Eel Electric" MMC-nin elektrik paylayıcı avadanlıqları və elektrik yuvaları müəssisəsində görülən işlərin 85 faizi artıq yekunlaşıb. Türkiyə və Avropanın qabaqcıl ölkələrindən avadanlıqlar gətirilib, yaxın vaxtlarda onların quraşdırılmasına başlanılacaq. Müəssisədə 35-10 kV daxili və xarici tip paylayıcı qurğular, 0,4 kV güc və idarəetmə panelləri, kondensator qurğuları, müxtəlif güclərdə transformator məntəqələrinin istehsalı həyata keçiriləcək. Şirkət tərəfindən həmçinin ölkəmizdə ilk dəfə elektrikli avtomobillər üçün şarj cihazlarının istehsalı da nəzərdə tutulur.

Bu arada məlum olub ki, Ağdam Sənaye Parkında Türkiyə kapitallı "Asilsoy" MMC-yə rezident statusu verilib, bununla da parkın rezidentlərinin sayı 27-yə çatıb. İqtisadi Zonaların İnkişafı Agentliyi bildirir ki, müəssisədə tava və qazan istehsalı həyata keçiriləcək.

→ 9

## Maliyyə COP29-un əsas məsələsidir

### Bu, xarici mətbuatın da mövzusuna çevrilib

Sirr deyil ki, Azərbaycan "yaşıl enerji"yə keçidə yönəlmiş innovativ yanaşmalar üzrə regionda liderə çevrilib və iqlim dəyişmələrinin təsirlərilə mübarizəyə ciddi töhfə verərək, COP29-la bağlı üzərinə düşən vəzifəni ən yüksək səviyyədə yerinə yetirir, hazırlıq işləri layiqincə görülür. Qlobal tədbirin Bakıda keçirilməsinə qərar veriləndən dərhal sonra Təşkilat Komitəsi yaradıldı, əlaqədar qurumlar səfərbər edildi. Bəşəriyyətdə baş verən təbii və süni fəlakətlərin, təkrarlanan faciələrin planeti ölü məzarlığına çevirməməsi üçün COP tədbirləri vacibdir, qaçılmazdır. Təbii ki, Azərbaycan belə qlobal tədbirlərdən kənarda qala bilməz-




di, iqlim dəyişmələri ilə mabarizədə nə qədər irəli getdiyini sərgiləməli idi.

Qarabağ və Şərqi Zəngəzurun, eləcə də Naxçıvanın "yaşıl zona" elan edilməsi bu məqsədin təsdiqidir. Kimsə bunu görməzlikdən gələ bilməz. Bu baxımdan COP29-a evsahibliyi etmək öhdəliyi Azərbaycanın qlobal nüfuzunun artmasını sürətləndirir. Bu həm də o deməkdir ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizəyə sadiqdir, əlindən gələni etməyə hazırdır. Bu gün ölkəmiz təkcə ənənəvi enerji resursları ilə deyil, həm də artan "yaşıl texnologiyalar" sahəsində regional liderdir.

→ 7



## 2036 ailə doğma yurduna qovuşub

### Şuşa, Füzuli, Zəngilan, Tərtər, Laçın və Xocalıdan sonra gələn ay Cəbrayıla da köç karvanı yollanacaq

→ 9

## Gümüş nəticə

**Fransanın paytaxtı Parisdən daha bir xoş xəbər gəldi. Boksçumuz Alfonso Dominqes gümüş medal qazanmaqla xalqımızı sevindirdi. 92 kq çəki dərəcəsində mübarizə aparan idmançımız finalda özbəkistanlı Lazizbek Mullojonovla üz-üzə gəldi.**

Asiya çempionu və dünya çempionatının bürünc mükafatçısı ilə döyüş maraqlı və gərgin keçməklə yadda qaldı. "Tokio-2020"nin bürünc mükafatçısı Azərbaycan boks tarixinə ilk Olimpiya çempionu kimi düşmək üçün rinqə çıxmışdı.

Qeyd edək ki, boksçumuz mübarizəyə 1/8 finaldan başlamışdı. Xulio Sesar la Krusla (Kuba) qarşılaşan idmançımız inamlı qələbə qazanmışdı. O, ikiqat Olimpiya çempionunu 3:2 (29:28, 28:29, 29:28, 27:30, 29:28) hesabı ilə məğlub edərək növbəti mərhələyə adlamışdı.

Təmsilçimiz 1/4 finalda Aybek Oralbayla (Qazaxıstan) üz-üzə gəlmiş və rəqibini 3:2 (28:29, 29:28, 28:29, 29:28, 29:28) hesabı ilə məğlub edərək yarımfinala yüksəlmişdi. Boksçumuz finala gedən yolda ispaniyalı Emmanuel Reyes Pla ilə qarşılaşmış və 4:1 hesabı ilə qalib gələrək həlledici mərhələyə çıxmışdı.

Finalda isə dünya çempionatlarının qızıl (2021) və gümüş (2023) mükafatçısı olan Dominqeslə Lazizbek Mullojonov arasındakı döyüş rəqibin 5:0 hesablı qələbəsi



ilə yekunlaşıb. Bununla da boksçumuz Olimpiadanı gümüş medalla başa vurdu. Beləliklə, Azərbaycan "Paris-2024"də 5-ci medalını qazandı.

*"Azərbaycan"*

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

# Vahid coğrafi region, ortaq dəyərlər, artan strateji əhəmiyyət

## Prezident İlham Əliyev Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə çıxış edib





**Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak edib.**

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.**

**Sonra birgə foto çəkdirildi.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti tədbirdə çıxış etdi.**



## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Kasım-Jomart Kemeleviç!

Hörmətli dövlət başçıları!

Əziz dostlar!

İlk növbədə Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkür etmək istərdim.

Ötən il mən Tacikistan Prezidenti Emoməli Şaripoviç Rəhmonun dəvəti ilə Düşənbədə keçirilən sammitdə iştirak etmişəm.

Azərbaycanın bu görüşlərə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir.

Bu, son iki ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir.

Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir.

Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir.

Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm.

Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir. Bu xüsusda, ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə vurğulamaq istərdim. Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.

Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" "yaşıl enerji" sahəsində əməkdaşlığımızda ilk addımdır.

Qarşılıqlı fəaliyyətimizin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta dəhlizin praktiki cəhətdən önəmini daha da artırır.

Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondları yaradılıb.

Həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəkdir.



Azərbaycan və Mərkəzi Asiya ölkələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu xüsusda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nı qeyd etmək istərdim. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb edir. SPECA-nın Bakıda keçirilən sammitində iştirak etdiklərinə görə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan prezidentlərinə bir daha təşəkkür edirəm. Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyini qazanaraq bu ilin noyabr ayında COP29 iqlim konfransına evsahibliyi edəcəkdir.

Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır.

Mən artıq Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərmişəm və noyabrda Bakıda yenidən görüşməyimizə şad olaram.

Diqqətinizə görə təşəkkür edirəm.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

# Vahid coğrafi region, ortaq dəyərlər, artan strateji əhəmiyyət

## Prezident İlham Əliyev Astanada Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təltif olunması mərasimində iştirak edib







Avqustun 9-da Astanada Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə "Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanı"nın təntənəli təqdim edilməsi mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

## Astanada dövlət başçılarının şərəfinə rəsmi qəbul

Avqustun 9-da Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından dövlət başçılarının şərəfinə rəsmi qəbul verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Səfər başa çatdı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri avqustun 9-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş naziri Oljas Bektenov və digər rəsmi şəxslər yola saldılar.

## Azərbaycan Prezidentinin Astanaya səfəri Qazaxıstan mətbuatının diqqət mərkəzindədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri və onun Mərkəzi Asiya və Azərbaycan Respublikası Dövlət Başçılarının görüşündə iştirakı Qazaxıstan mətbuatının diqqət mərkəzində idi.**









AZƏRTAC xəbər verir ki, TengriNews.kz, Kapital.kz, InformBuro.kz, Kaztag.kz, Zakon.kz nəşrlərinin dərc etdiyi materiallarda deyilir ki, Qazaxıstan və Azərbaycan arasında ikitərəfli münasibətlər ticarət-iqtisadi və mədəni-humanitar qarşılıqlı fəaliyyətin bütün spektri üzrə inkişaf edir.

Qazaxıstan Respublikası hökumətinin məlumatlarına əsasən, ötən ilin yekunlarına görə Qazaxıstan və Azərbaycan arasında mal dövriyyəsi 14,3 faiz artaraq 529,4 milyon dollar, cari ilin yanvar-iyun aylarında isə 280,6 milyon dollar təşkil edib.

Qazaxıstan mətbuatı qeyd edib ki, hökumətlər tərəfindən neft və qaz, nəqliyyat-logistika, rəqəmsal kommunikasiyalar və kosmik sənaye sahəsində birgə layihələr həyata keçirilir.

Qazaxıstan mətbuatı Prezident İlham Əliyevin Mərkəzi Asiya və Azərbaycan Respublikası Dövlət Başçılarının görüşündə iştirakı və çıxışı barədə məlumat təqdim edib, Azərbaycan Prezidentinə COP29 qlobal iqlim konfransının keçirilməsində uğurlar arzu edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevdən sitatlar gətirib.

"Kazinform" Prezident İlham Əliyevin Mərkəzi Asiya və Azərbaycan Respublikası Dövlət Başçılarının görüşündəki çıxışını yayıb. Agentlik bildirib ki, dövlət başçısı dünyada artan təhdid və çağırışların ölkələr arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi zərurəti yaradıb.

## "Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 aprel tarixli 624 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 aprel tarixli 624 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 624 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.1.2. Mərkəzin idarəetmə orqanlarının yaradılması;

2.1.3. Mərkəzin idarəetmə orqanları rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.1.4. Mərkəzin yenidən təşkili və ləğvi;

2.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;";

1.2. 2.3-cü bənd üzrə:

1.2.1. 2.3.1-ci bənddən ", strateji məqsədlərinin və fəaliyyət planlarının" sözləri çıxarılsın;

1.2.2. 2.3.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.3.2. Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi.";

1.3. həmin Fərmanla təsdiq edilmiş "Sosial Tədqiqatlar Mərkəzinin Nizamnaməsi" üzrə:

1.3.1. 2-ci hissə üzrə:

1.3.1.1. adından "məqsədi və" sözləri çıxarılsın;

1.3.1.2. 2.1-ci bənd ləğv edilsin;

1.3.2. 3-cü hissə üzrə:

1.3.2.1. 3.1.16-cı yarımbənddə "qanunvericilik aktlarının" sözləri "normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

1.3.2.2. aşağıdakı məzmunda 3.1.20-1-ci, 3.1.26-1-ci və 3.2.1-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.20-1. sosial tədqiqatlar sahəsində elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;";

"3.1.26-1. Mərkəzin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;";

"3.2.1-1. sosial tədqiqatlar sahəsində beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;";

1.3.2.3. 3.1.25-ci yarımbənddə "və yerləşdirilməsini" sözləri "yerləşdirilməsini" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "və təhlükəsizliyini" sözləri çıxarılsın;

1.3.2.4. 3.2.11-ci yarımbənddə "fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı" sözləri "sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq," sözləri ilə əvəz edilsin;

1.3.2.5. 3.2.13-cü yarımbənddə "Mərkəzin Nizamnaməsi" sözləri "bu Nizamnamə" sözləri ilə əvəz edilsin;

1.3.3. 4-cü hissə üzrə:

1.3.3.1. 4.5.4-cü və 4.8.8-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.5.4. Mərkəzin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək;";

"4.8.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Mərkəzin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;";

1.3.3.2. 4.5.8-ci yarımbənddən "törəmə" sözü çıxarılsın;

1.3.3.3. 4.6-cı bəndin birinci cümləsində "iclasları ayda bir dəfədən az olmayaraq çağırılır" sözləri "sədri ayda bir dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir" sözləri ilə, altıncı cümləsində "İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün)" sözləri "iclasa sədrlik edənin" sözləri ilə əvəz edilsin;

1.3.3.4. 4.7-ci bəndin birinci cümləsinə "üzvlərinə" sözündən sonra "və İdarə Heyətinin iclaslarına dəvət olunan digər şəxslərə" sözləri əlavə edilsin;

1.3.3.5. 4.8.7-ci yarımbənddə "Mərkəzin" sözü "özünün və Mərkəzin struktur bölmələrinin" sözləri ilə əvəz edilsin;

1.3.3.6. 4.8.9-cu yarımbənddə "əməkhaqqı" sözü "əməyin ödənişi" sözləri ilə əvəz edilsin;

1.3.4. aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

"5.4-1. Mərkəzin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.";

1.3.5. 7.2-ci bənddən "statistik uçot aparır," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2024-cü il*

# Bakıda Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclası olub

**Avqustun 9-da Bakıda Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclası keçirilib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən sədri, Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Hökumətlərarası Komissiyanın Rusiya tərəfindən sədri, Rusiya Federasiyası Hökumətinin sədr müavini Aleksey Overçukun sədrliyi ilə keçirilən iclasda hər iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri və səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Azərbaycan-Rusiya münasibətlərinin hərtərəfli inkişafından məmnunluq ifadə edilib.

Qeyd olunub ki, Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və etimada əsaslanan münasibətləri sayəsində bu gün dövlətlərarası əlaqələr strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq ruhunda davamlı şəkildə möhkəmlənir.

Eyni zamanda vurğulanıb ki, çoxşaxəli strateji tərəfdaşlıq 260-dan çox imzalanmış sənədi özündə birləşdirən möhkəm hüquqi baza ilə təmin olunub.

2022-ci il fevralın 22-də imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə xüsusi əhəmiyyətə malikdir.

Rusiya Azərbaycanın üçüncü ən böyük ticarət, qeyri-neft ixracına görə isə birinci tərəfdaşıdır. Bildirilib ki, 2023-cü ildə ticarət dövriyyəsi 17,5 faiz artaraq rekord həddə, təxminən 4,4 milyard ABŞ dollarına çatıb. Həmçinin cari ilin birinci yarısında əmtəə dövriyyəsi dinamik artım nümayiş etdirir.

Tərəflər investisiya əməkdaşlığında artımın müsbət dinamikasını məmnunluqla qeyd ediblər. Rusiya biznesinin Azərbaycan iqtisadiyyatının bir çox sahələrində geniş təmsil olunduğu vurğulanıb. Azərbaycan hökuməti rusiyalı investorların rahat işləməsi üçün hər cür şərait yaradır.

Tərəflər sənaye əməkdaşlığının davamlı inkişafını qeyd edərək, Azərbaycanın müxtəlif sənaye obyektlərində dərman vasitələrinin birgə istehsalı, yük avtomobillərinin yığılması, yük avtomobilləri və kənd təsərrüfatı texnikası üçün xidmətlərin göstərilməsi sahəsində əməkdaşlığın uğurlu nəticələrini qeyd ediblər. Bir sıra gəmiqayırma sahələrində əməkdaşlığın perspektivləri müsbət qiymətləndirilib.

Azərbaycan şirkətləri də Rusiya iqtisadiyyatına fəal şəkildə sərmayə qoyur. Rusiyanın regionlarında sanatoriya-turizm mərkəzlərinin, mehmanxana komplekslərinin, meyvə-tərəvəz konservləri və çay istehsalı fabriklərinin tikintisi layihələri uğurla həyata keçirilib.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın dinamikasından məmnunluq ifadə olunub. Azərbaycan Rusiyaya kənd təsərrüfatı məhsullarının əsas tədarükçüsü olan on ölkədən biridir. 2023-cü ildə Rusiyaya meyvə və tərəvəz ixracı təxminən 9 faiz artıb.

Qeyd edilib ki, hər iki tərəf nəqliyyat-tranzit sektorunda əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verir. Ötən il ikitərəfli yükdaşımalarının ümumi həcmi 10 faizdən çox artıb. Bu il də müsbət tendensiya müşahidə olunur - ilin birinci yarısında artım 3 faiz təşkil edib.

Tərəflər "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı ilə bağlı Azərbaycan və Rusiya prezidentlərinin tapşırıqlarının icrası üzrə birgə işi davam etdirməyə qarşılıqlı hazır olduqlarını təsdiq ediblər.

Qeyd olunub ki, bu proses avtomobil və dəmir yolu infrastrukturunun təkmilləşdirilməsi, dövlət sərhədindən buraxılış məntəqələrinin inkişafı istiqamətində tərəflərin birgə səyləri ilə vəhdətdə aparılır.

Bu xüsusda Azərbaycan-Rusiya dövlət sərhədindən buraxılış məntəqələrinin inkişafı üzrə Yol Xəritəsinin əhəmiyyəti qeyd edilib.

Neft-qaz sektoru ikitərəfli əməkdaşlığın mühüm sahələrindən biri kimi səciyyələndirilib.

Həmçinin Rusiya turizm sektorunda da Azərbaycana gələn turistlərin sayına görə lider mövqe tutur. Ötən il ölkəmizə 630 mindən çox rusiyalı turist, 2024-cü ilin ilk altı ayında isə 360 min turist gəlib ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz çoxdur.

Eyni zamanda qeyd olunub ki, humanitar əməkdaşlıq ənənəvi olaraq Azərbaycan-Rusiya münasibətlərinin əsas vektoru olaraq qalır.

Azərbaycan Respublikasında rus dilində tədrisin olduğu 324 məktəb var ki, burada 800 min məktəbli rus dilini ikinci xarici dil kimi öyrənir.

Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları da ölkədə uğurla fəaliyyət göstərir, tələbələrə rus dilində yüksəkkeyfiyyətli təhsil almaq imkanı yaradır.

Tərəflər mədəni, elm və gənclər mübadiləsinin intensivləşməsini alqışlayıblar. İyun ayında Azərbaycanda Rusiya Mədəniyyəti Günləri böyük uğurla keçirilib.

İkitərəfli münasibətlərin mühüm tərkib hissəsinin hər iki dövlətin ən yüksək səviyyədə önəm verdiyi regionlararası əməkdaşlıq olduğu vurğulanıb.

Tərəflər bu baxımdan hərtərəfli qarşılıqlı fəaliyyət üçün səmərəli platforma kimi özünü təsdiq etmiş Azərbaycan-Rusiya Regionlararası Forumunun rolunu yüksək qiymətləndiriblər. Fevral ayında Stavropol diyarında 12-ci forum uğurla keçirilib.

Azərbaycanın regionları ilə Rusiya Federasiyasının subyektləri arasında mütəmadi olaraq qarşılıqlı yüksəksəviyyəli səfərlər həyata keçirilir.

Tərəflər həmçinin qarşılıqlı maraq kəsb edən sahələrdə ikitərəfli münasibətlərin inkişafı perspektivlərini müzakirə edib, qarşılıqlı faydalı əməkdaşlığın bütün kompleksi üzrə konstruktiv dialoqu davam etdirməyə hazır olduqlarını ifadə ediblər.

İclasın yekunlarına dair Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Hökumətinin sədr müavini Aleksey Overçuk Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclasının protokolunu imzalayıblar.

# YAP Mərkəzi Aparatında ATƏT DTİHB Seçki Müşahidə Missiyasının əsas heyətinin üzvləri ilə görüş keçirilib

**Avqustun 9-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati, missiya rəhbərinin müavini Elissavet Karagiannidou və siyasi analitik Noemi Arçidiakono ilə görüş keçirilib.**



Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Ditmir Buşati ATƏT DTİHB missiyasının tərkibi və fəaliyyəti barədə məlumat verib. O, rəhbərlik etdiyi heyətin ATƏT DTİHB-nin Azərbaycandakı 14-cü seçki müşahidə missiyası olduğunu söyləyib. O, Azərbaycanda seçkilərə hazırlıq prosesini öyrənmək məqsədilə müvafiq dövlət qurumlarının nümayəndələri, seçkilərdə iştirak edən partiyalar və namizədlərlə görüşlər keçirdiklərini diqqətə çatdırıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın seçki təcrübəsi barədə ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan uzun illərdir ATƏT DTİHB ilə əməkdaşlıq edir, qurum ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərini müşahidə edir.

Tahir Budaqov 2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar bütün namizədlərə bərabər şəraitin yaradıldığını və yüksək rəqabət mühitinin olduğunu vurğulayaraq seçkilərin azad, şəffaf və demokratik şəraitdə baş tutacağına əminliyini ifadə edib. O, Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıq tədbirləri, namizədlərin qeydiyyatı, partiyanın seçki platforması və digər təşviqat materialları haqqında ümumi məlumat verərək YAP-ın bütün prosedurları qanun çərçivəsində və maneəsiz olaraq həyata keçirdiyini bildirib. Tahir Budaqov hazırda qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla seçkiqabağı təşviqat işlərinə başlanıldığını və partiya fəallarının bu prosesə aktiv cəlb edildiklərini diqqətə çatdırıb.

Daha sonra müşahidə missiyası üzvlərinin seçki prosesinə dair suallarını cavablandıran YAP Sədrinin müavini Tahir Budaqov missiyanın fəaliyyətinə uğurlar arzulayıb.

# DOST 6 yaşını qeyd edir

**Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin 6 yaşı tamam olur. Agentliyin missiyası əhalinin əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə DOST mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir.**








Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası Azərbaycanda son illər aparılan sosial islahatların mühüm nailiyyətlərindən biridir. Bu konsepsiya əmək, məşğulluq, əlillik, reabilitasiya, sosial müdafiə və sosial təminat sahələrinə dair 15 istiqamət üzrə 160 sosial xidmətin "bir pəncərə"dən, müasir və çevik, tam şəffaf mexanizmlər üzərindən, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasını təmin edir.

İndiyədək Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında olmaqla 7 DOST Mərkəzi, həmçinin Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Şuşa şəhərində isə Qarabağ Regional DOST Mərkəzinin filialı istifadəyə verilib.

DOST mərkəzlərində ötən dövrdə 2,8 milyondan çox vətəndaşa xidmət göstərilib. Xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsi 98,2 faiz təşkil edir. "DOST Çağrı Mərkəzi 142" tərəfindən isə ötən dövr ərzində 6 milyona yaxın vətəndaş müraciəti cavablandırılıb.

Hazırda Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST xidmətləri şəbəkəsinin qurulması üçün layihə, təmir-tikinti işləri aparılır. Ümumilikdə 17 yeni regional DOST Mərkəzinin, 55 DOST filialının yaradılması nəzərdə tutulur.

Azərbaycanın yeni brendi olan DOST konsepsiyası beynəlxalq səviyyədə də yüksək qiymət alaraq müasir dünyanın sosial innovasiyalar sahəsində qabaqcıl təcrübələr sırasına daxil edilib. DOST Agentliyi ötən dövrdə 30-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunub. Bu mükafatların sırasında Avropa Sosial Şəbəkəsinin, Beynəlxalq Sosial Təminat Assosiasiyasının, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının və s. xüsusi mükafatları yer alır.

"Aİ Biznes Mühiti Hesabatı 2021"də isə DOST mərkəzləri Azərbaycanın 3 təkmil islahatından biri kimi qiymətləndirilib. BMT tərəfindən "İnnovativ ictimai xidmət həlləri" statusunda tanınan DOST təcrübəsini öyrənərək tətbiq etməyə maraq göstərən ölkələrin sırası getdikcə genişlənir və bu sahədə həmin ölkələrlə təcrübə mübadiləsi aparılır.

DOST Agentliyinin "Könüllü DOST" proqramı isə ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rola malikdir. Ötən dövrdə 120 minə yaxın müraciət olub və 5,2 mindən çox şəxs bu proqrama cəlb edilib. "Könüllü DOST" proqramı da bir sıra beynəlxalq mükafatlara layiq görülüb, həmçinin "Global HR Summit 2023" beynəlxalq müsabiqəsinin qalibi olub.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Baş prokuror paytaxtın Nəsimi rayonunda vətəndaşların müraciətlərini dinləyib

**Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Avqustun 9-da baş prokuror Kamran Əliyev Nəsimi Rayon Prokurorluğunun inzibati binasında Bakı şəhərinin Nəsimi rayonundan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, qəbulda iştirak edən 55 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Qərbi Azərbaycan İcmasında Diaspor Gənclərinin V Yay düşərgəsində iştirak edən gənclərlə görüş olub

**Qərbi Azərbaycan İcmasında Diaspor Komitəsinin təşkilatçılığı ilə keçirilən Diaspor Gənclərinin V Yay düşərgəsində iştirak edən gənclərlə görüş keçirilib.**

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından məlumat verilib.

Qeyd olunub ki, icmanın İctimaiyyətlə Əlaqələr və Qərbi Azərbaycan Televiziyası Şöbəsinin müdiri Ülviyyə Zülfiqar gənclərə Qərbi Azərbaycan həqiqətləri barədə məlumat verərək soydaşlarımızın son 200 il ərzində öz tarixi torpaqlarından mərhələlərlə çıxarılması, ötən əsrdə dörd dəfə deportasiya edilmələri, sonuncu 1987-1991-ci il deportasiyası zamanı Ermənistan tərəfindən 300 minə yaxın soydaşımızın öz el-obalarından zorla çıxarıldıqlarını bildirib. Sözçü qeyd edib ki, indiki Ermənistan ərazisində qərbi azərbaycanlıların maddi və qeyri-maddi mədəni irsi məhv edilib. Bu kimi haqsızlıqlarla bağlı Qərbi Azərbaycan İcması yenidən təşkilatlandığı gündən etibarən sözügedən ədalətsizliklərlə bağlı dünya ictimaiyyətini geniş məlumatlandırmaq istiqamətində intensiv addımlar atıb, ayrı-ayrı subyektlərə məktublar və müraciətlər ünvanlayıb. Bu gün icmanın məqsədi soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışı istiqamətində fəaliyyət aparmaq və onların hüquqlarını müdafiə etməkdir. Bu məqsədə nail olmaq üçün xaricdə yaşayan soydaşlarımızın, xüsusilə də gənclərin rolu çox böyük əhəmiyyət kəsb edir. Ülviyyə Zülfiqar qərbi azərbaycanlıların geri qayıdış hüququ barədə xarici auditoriyanın məlumatlandırılmasında gənclərin böyük töhfə verə biləcəklərini vurğulayıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Esmira Xəlilova bu istiqamətdə komitənin gənclərlə apardığı işi daha da intensivləşdirəcəyini qeyd edib.

İcmanın Gənclərlə İş üzrə məsul şəxsi Anar İrzaquliyev gənclərin sözügedən məqamlarla bağlı daha ətraflı məlumatlandırılması üçün lazım olan resursların təmin ediləcəyini, o cümlədən icmanın sosial media və onlayn media resurslarının bunun üçün açıq olduğunu diqqətə çatdırıb.

Sonda gənclərin sualları cavablandırılıb, xatirə fotosu çəkdirilib.

# COP29 Azərbaycan Əməliyyat Şirkəti beynəlxalq sənədli film müsabiqəsi elan edir

**COP29 Azərbaycan Əməliyyat Şirkəti qlobal iqlim problemləri və onların həll yollarına geniş ictimaiyyətin diqqətinin cəlb olunması istiqamətində fəaliyyətin davamı olaraq beynəlxalq sənədli film müsabiqəsi layihəsini təqdim edir.**




Əməliyyat Şirkətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Dəyişikliyin sədaları: Qlobal iqlim fəaliyyətinə baxış" adlı müsabiqədə iştirak üçün dünyanın istənilən ölkəsindən sənədli film çəkilişləri sahəsində təcrübəsi olan şəxs və şirkətlər dəvət olunurlar.

Təşəbbüsün əsas məqsədi qlobal iqlim fəaliyyətinin gündəmdə saxlanılması, ətraf mühit problemlərinin həllinə yönələn kollektiv səylərin səsinə səs verməkdir. Belə ki, layihə sənədli film müəlliflərinin yaradıcı potensialını aktual iqlim mövzularına yönəldərək, bu sahədə fəaliyyət göstərən şirkət və şəxslər üçün iqlim problemlərinin həllində öz kreativ yanaşmalarının tətbiqi üzrə təşviqat platforması olacaq. Müsabiqə dayanıqlı iqlim gələcəyinə doğru atılan addımlarda praktiki fəaliyyətin yaradıcı ideya və yanaşmalarla dəstəklənməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Müsabiqənin əsas mövzuları biomüxtəliflik və ekosistemlərin qorunması, su ehtiyatlarının səmərəli idarə olunması, gender və ətraf mühit məsələlərinin təsirləri, yerli bilik və təcrübələr, bərpaolunan enerji həlləri kimi müxtəlif istiqamətləri əhatə edir. Videomateriallar ümumilikdə 5 fərqli nominasiya üzrə müxtəlif əhatəli meyarlar üzrə ixtisaslaşmış ekspert komissiyası tərəfindən qiymətləndiriləcək.

Müsabiqənin şərt və tələbləri barədə ətraflı məlumat COP29 rəsmi veb-səhifəsindən əldə edilə bilər. Qeyd olunmuş tələblərə cavab verən videoməhsullar sentyabrın 15-dək **documentary.competition@cop29.az** elektron poçt ünvanına göndərilməlidir. Layihənin yekununda tam və qısametrajlı kateqoriyalarda qalib olan filmlər noyabrda Bakıda keçiriləcək COP29 konfransında, eyni zamanda COP29-un rəsmi veb-saytında və sosial media hesablarında nümayiş etdiriləcək.

# 1 sentyabr Milli Məclisə seçkilər günüdür

## Mərkəzi Seçki Komissiyasının Müstəqil Media Mərkəzinə baxış keçirilib

**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə fərqli statuslu seçki iştirakçılarının sərbəst fəaliyyətinə kömək göstərilməsi, hərtərəfli əlverişli şəraitin və geniş imkanların təmin olunması üçün müxtəlif formatlı layihələr gerçəkləşdirilir.**











Mərkəzi Seçki Komissiyasının (MSK) qarşıdan gələn seçkilərlə əlaqədar yeni fəaliyyətə başlayan "Seçki-2024" Müstəqil Media Mərkəzi də bu kateqoriyadan olan layihələrdən biridir.

AZƏRTAC xəbər verir ki, MSK sədri Məzahir Pənahov avqustun 9-da Müstəqil Media Mərkəzinə gəlib, komissiya üzvləri və katibliyin təmsilçilərinin də iştirakı ilə mərkəzə baxış keçirilib.

Mərkəzdəki şəraitlə yaxından tanış olan M.Pənahov Müstəqil Media Mərkəzinin yaradılmasının uzun illərdir mütəmadi şəkildə reallaşdırılan və effektivliyi ilə öz təsdiqini tapmış uğurlu təcrübə olduğunu bildirib. O, yerli və beynəlxalq media nümayəndələrinin Milli Məclisə seçkilərlə bağlı azad, sərbəst və asanlıqla məlumat əldə edə bilmələrinin, eynilə digər seçki subyektlərinə də daha keyfiyyətli və səmərəli xidmət göstərilməsinin zəruriliyini diqqətə çatdırıb. Mərkəzin təkmil fəaliyyətinə dair təəssürat və tövsiyələrini bölüşən MSK sədri qeyd edib ki, layihənin başlıca məqsədi seçkilərdə aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin edilməsində əhəmiyyətli rol oynayan yerli və beynəlxalq media nümayəndələrinə daha geniş imkanlar təmin etməkdir.

Sədr Məzahir Pənahov tanışlıq zamanı, həmçinin mərkəzdə çalışan jurnalistlərlə söhbət edib, onların fikirlərini dinləyib.

Tanışlıqdan sonra MSK sədri həm Müstəqil Media Mərkəzinin fəaliyyəti, həm də Milli Məclisə seçkilərdə hazırlıqların gedişi barədə media mənsublarına açıqlama verib, jurnalistlərin suallarını cavablandırıb.

Qeyd etmək lazımdır ki, Müstəqil Media Mərkəzi qarşıdan gələn seçkiləri hərtərəfli, operativ və obyektiv işıqlandırmaqda, o cümlədən məlumatları almaqda və dərhal ictimailəşdirməkdə yerli və beynəlxalq media nümayəndələrinə yardımçı olacaq. Media mənsubları müasir informasiya-kommunikasiya texnologiyaları və zəruri texniki avadanlıqlarla tam təchiz olunan mərkəzdən sərbəst istifadə edə bilərlər.

Müstəqil Media Mərkəzinin internet səhifəsi (**www.secki-2024.az**) Milli Məclisə seçkilərlə bağlı müntəzəm olaraq Azərbaycan, ingilis və rus dillərində ən son məlumatları təqdim edir. Seçki prosesinə dair müxtəlif məsələlər barədə səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, açıqlama və bəyanatlar dərhal ictimailəşdirilir, foto və videogörüntülər paylaşılır.

## *Məzahir PƏNAHOV:* "Namizədlərin təşviqat aparması üçün 5509 yer müəyyənləşib"

**"Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərlə bağlı namizədlərin təşviqat mərhələsi başlayıb".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov avqustun 9-da jurnalistlərə müsahibəsində deyib.

Namizədlərə təşviqat aparmaq üçün geniş şərait yaradıldığını bildirən M.Pənahov qeyd edib ki, bu məqsədlə qapalı və açıq məkanlar da daxil olmaqla, ölkə üzrə 5509 ünvan müəyyənləşib.

## *MSK sədri:* "ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ilə məhsuldar əməkdaşlıq edirik"

**"ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ilə uzun illərdir əməkdaşlıq edirik. Avqustun 1-dən qurumun uzunmüddətli missiyası ölkəmizdə fəaliyyətə başlayıb".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov avqustun 9-da jurnalistlərə müsahibəsində deyib.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun öz nümayəndələrini Azərbaycanın müxtəlif bölgələrində yerləşdirdiyini vurğulayan M.Pənahov qeyd edib ki, həmin nümayəndələr seçkiqabağı proseslər, məntəqələrin seçkilər üçün nə dərəcədə hazır olması ilə bağlı müşahidələr aparırlar. "Biz onlarla məhsuldar əməkdaşlıq edirik. İclaslarımızda da iştirak edirlər. Mərkəzi Seçki Komissiyasının Müstəqil Media Mərkəzi də onların üzünə açıqdır", - deyə o əlavə edib.

## "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda növbəti "dəyirmi masa" Qubada təşkil olunub

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə təşkilatçılığı ilə Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda növbəti "dəyirmi masa" Qubada təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, tədbirdə açılış nitqi ilə çıxış edən Mərkəzi Seçki Komissiyasının üzvü Hüseyn Paşayev Milli Məclisə növbədənkənar seçkilər ərəfəsində keçirilən maarifləndirmə tədbirlərindən bəhs edib, MSK və Ombudsman Aparatının birgə təşkil etdiyi tədbirlərin əhəmiyyətindən danışıb.

Komissiyanın üzvü MSK tərəfindən görülmüş işlər, eləcə də təşkil edilməsi planlaşdırılan tədbirlər barədə də ətraflı məlumat verib, bu cür tədbirlərin davam etdirildiyini diqqətə çatdırıb.

Aparat rəhbəri Aydın Səfixanlı çıxışı zamanı seçkiyə hazırlıq məqsədilə həyata keçirilən maarifləndirmə tədbirlərindən danışıb, ombudsman Səbinə Əliyevanın təşəbbüsü və MSK-nın dəstəyi ilə paytaxtda və regionlarda birgə maarifləndirmə tədbirlərinin təşkil olunduğunu qeyd edib.

A.Səfixanlı ölkəmizdə vətəndaşların aktiv və passiv seçki hüquqlarının daha səmərəli təmini istiqamətində həyata keçirilən kompleks tədbirlərdən, müşahidəçilik institutunun əhəmiyyətindən bəhs edib. O, ötən illərdəki müsbət təcrübəyə uyğun olaraq, müvəkkilin və təsisatın əməkdaşlarının özlərinin təşəbbüsü ilə növbədənkənar parlament seçkilərində müşahidə aparacaqlarını bildirib. Sonra MSK Katibliyinin Media və kommunikasiya şöbəsinin böyük məsləhətçisi Rüstəm Babayev tədbirdə məruzə ilə çıxış edib, MSK tərəfindən görülən işlərdən, seçicilərin öz konstitusion hüquqlarını sərbəst şəkildə həyata keçirməsi üçün yaradılan imkanlardan, eləcə də seçki prosesində media subyektlərinin vəzifələrindən danışıb.

Tədbirdə həmçinin mövzu üzrə müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Ombudsman Aparatı ilə Mərkəzi Seçki Komissiyasının növbədənkənar parlament seçkiləri ilə əlaqədar ilk birgə maarifləndirmə tədbiri ombudsman Səbinə Əliyevanın, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun və dairə seçki komissiyalarının nümayəndələrinin iştirakı ilə Bakıda keçirilib.

## Seçkilərlə əlaqədar gənclərin maarifləndirilməsinə başlanılıb

**Milli Məclisə növbədənkənar seçkilərlə bağlı Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı ilə gənclərin maarifləndirilməsinə başlanılıb.**







AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyası ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən maarifləndirmə zamanı "Seçki könüllüləri" qrupu gənclərin seçki hüququndan səmərəli istifadə etmələri məqsədilə onlara seçki prosedurları ilə bağlı maarifləndirici bukletlər paylayıb. Həmçinin seçki barədə ətraflı məlumat verilib və gənclərin sualları cavablandırılıb. Qeyd edək ki, "Seçki könüllüləri" paytaxtın müxtəlif ərazilərində və ölkənin digər iri şəhərlərində də fəaliyyət göstərəcək. Qrupun məqsədi gənclərin seçki hüququ, seçki mədəniyyəti, xüsusilə də seçkilərdə ilk dəfə seçici kimi iştirak edənlərin məlumatlılıq səviyyəsinin və seçici fəallığının artırılmasına töhfə verməkdir.

## Gəncəlilər parlament seçkilərinə yüksək əhvali-ruhiyyə ilə gedirlər



**Növbədənkənar parlament seçkilərinə sayılı günlər qalıb. Artıq bu siyasi kampaniyanın mühüm mərhələsinə qədəm qoymuşuq. Milli Məclisə seçiləcək namizədlərin təbliğat kampaniyasına start verilmişdir.**

Bunun üçün namizədlərin hər birinə lazımi şərait yaradılmışdır ki, onlar da bundan lazımınca faydalanırlar. Bundan başqa, seçkiqabağı təşviqat aparılması üçün müvafiq yerlər də ayrılmışdır.

Belə bir əlamətdar dövrdə Gəncədə də seçici fəallığı hiss olunur. Şəhərdə 38, 39, 40 və 41 saylı dairə seçki komissiyalarını əhatə edən seçki məntəqələrinin hamısı bu siyasi kampaniyaya demək olar ki, hazırdır. Seçki məntəqələri əsaslı şəkildə təmir edilmiş, zəruri texniki və metodiki vəsaitlərlə, elektrik generatorları, eləcə də rabitə şəbəkəsi ilə təmin edilmişdir. Seçicilərin namizədlərə öz münasibətlərini sərbəst şəkildə bildirmələri üçün lazımi şərait yaradılmışdır. Seçki məntəqələrində katib və üzvlər, həmçinin seçkini izləyəcək yerli və xarici müşahidəçilər üçün yerlər müəyyənləşdirilmişdir. Bir sözlə, bütün məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsinə yüksək səviyyədə hazırlıq işləri görülmüşdür.

Seçkilərə münasibət bildirmək üçün şəhər sakinləri ilə söhbət apardıq. Qarşımıza ilk çıxan təqaüdçü Ayaz Əliyev oldu. O dedi ki, dörd ildir ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edilib. 30 il işğal altında olan Qarabağ və Şərqi Zəngəzur nəhayət ki, düşməndən azad edildi. İndi ermənilər tərəfindən darmadağın edilən rayonlarımız yenidən bərpa edilir. Belə bir dövrdə Milli Məclisə keçirilən seçkilərin xüsusi əhəmiyyəti var. Buna görə hər bir Azərbaycan vətəndaşının borcu bu siyasi kampaniyada fəal iştirak etməkdir.

Şəhər sakini, Azərbaycan Dövlət Aqrar Universitetinin kafedra müdiri Arif Qazıyev də qarşıdan gələn parlament seçkilərində hamının bir nəfər kimi iştirakının vacibliyini vurğuladı. Dedi ki, ölkəmiz müstəqillik qazandıqdan sonra əldə etdiyimiz inkişaf göz qabağındadır. Xüsusilə elm və təhsil sahəsində yüksək uğurlarımız var. Gənclərin ali təhsil almaları üçün dövlətimiz hər cür şərait yaradıb. İqtisadiyyatımız sürətlə inkişaf etmiş, şəhər və rayonlarımızın siması gözəlləşmişdir. İndi kəndlərimiz şəhərlərdən heç də seçilmir. Heç uzağa getməyək. Qədim Nizami yurdu olan Gəncə sürətlə inkişaf edib. Abad məhəllələr, yeni məktəblər, park və xiyabanlar insanlarda ruh yüksəkliyi yaradır. Söz yox ki, bütün bunlar inkişafdan xəbər verir. Bu inkişafı dəyərləndirən şəhər sakinləri sentyabrın 1-də keçiriləcək parlament seçkilərində fəallıq göstərərək seçkilərdə iştirak edəcək, ölkəmizin daha işıqlı gələcəyi naminə istədiyi namizədə səs verəcəkdir.

Apardığımız söhbətlərdən aydın oldu ki, seçki prosesi yaxınlaşdıqca insanların əhvali-ruhiyyəsi də yüksəlir. Hamının yeganə arzusudur ki, bu siyasi kampaniyada fəal iştirak etməklə ölkəmizin daha da çiçəklənməsi üçün ən layiqli namizədə səs versin.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




◆ Bakı COP29-a hazırlaşır

**Bakı müasir zəmanəmizin ciddi çağırışlarına cavab verə biləcək möhtəşəm bir tədbirə - COP29-a hazırlaşır. Şəhər sanki hər gün bir boy da böyüyüb, gözəlləşir...**

**Belə bir gündə quruculuğun, inkişafın əsl ünvanı Ağ Şəhərə üz tuturuq...**

**Gözümüzlə gördüyümüzə inana bilmirik...**

**Burada sanki möcüzə baş verib.**

**İnsan zəkası ilə insan əməyinin yaratdığı xariqələr harmoniyasını görüb təəccüblənməmək mümkün deyil. Şərq arxitekturası ilə Avropa memarlığının ən nəfis elementlərini özündə birləşdirən binalar, göylərə ucalan göydələnlər, geniş yaraşıqlı küçələr, gözoxşayan yaşıllıqlar gözəlliyi ilə insanı ovsunlayır.**

**Bu yerdə məşhur atalar sözünü xatırlamamaq olmur: "Ağ gün adamın üzünü ağardar"...**

**Şəhərlər də insanlar kimidir, öz talelərini yaşayırlar...**





# Yaşıl paytaxtın Ağ Şəhəri















## Qara Şəhərdən Ağ Şəhərə

Bir zamanlar hamımızın Qara Şəhər kimi tanıdığı indiki Ağ Şəhər sözün bütün mənalarında ağ günlərini yaşayır.

Ulu Öndər Heydər Əliyev yarımçıq qalmış işlərini siyasi varisi Prezident İlham Əliyevin tamamlayacağına, arzularını birə-bir gerçəkləşdirəcəyinə əmin olduğu üçün illər öncə inamla demişdir: "Azərbaycanda yüz illərdən bəri Qara Şəhər adlanan şəhər ağaracaqdır, təmizlənəcəkdir, orada gül-çiçək əkiləcəkdir və o, Azərbaycanın gözəl bir guşəsinə çevriləcəkdir".

İnam doğruldu, arzular həqiqət oldu. Müzəffər Komandan torpaqları azad edib əsl Qurucu Lider kimi Azərbaycanın hər tərəfini gülüstana çevirdi. Ağ Şəhər də əsl gözəllik vadisi, müasir şəhər modeli kimi formalaşdı.

Dövlət başçısı İlham Əliyevin bu şəhərin keçmişi haqqında dediyi "biz maşınla o yerdən keçəndə pəncərələri bağlayırdıq. Çünki tüstüdən, iydən dayanmaq mümkün deyildi. Biz Qara Şəhəri Ağ Şəhərə çevirdik" fikri bu şəhərin həm dünəni, həm də bu günədək keçdiyi yol haqqında tam təsəvvür yaradır.

## Ağ yol

Qara Şəhəri qara günlərə qoyan vaxtilə adı bizim, özü bizim olmayan "qara qızıl"ımız, Bakı nefti olmuşdur. Bakının şərq hissəsində yerləşən Qara Şəhər XIX əsrin sonlarında başlayan ilk neft bumunun bizə qalan ağır mirası idi. Təxminən 150 ildən çox əsasən neft sənayesi müəssisəsinin cəmləşdiyi bu ərazilər çirklənərək ekoloji fəlakət zonasına çevrilmişdi.

Bu gün dünyada irimiqyaslı ekoloji şəhərsalma layihəsi kimi tanınan "Ağ Şəhər" layihəsi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" barədə sərəncamı ilə təsdiq olunub.

Ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən "Ağ Şəhər" dünyanın ən iri müasir layihələrindən biridir. 1650 hektar ərazini əhatə edən 280 000 sakinin məskunlaşması üçün nəzərdə tutulan, bir-biri ilə qonşu olan 10 kvartalı birləşdirən, ümumi sahəsi 15 milyon kvadratmetr olan tikinti sahəsində 120 000 yaşayış və xidmət obyektinin inşası nəzərdə tutulub. Bu da o deməkdir ki, layihə başa çatdıqdan sonra Ağ Şəhər 240 000 sakini iş yeri ilə təmin edəcəkdir.

2011-ci il dekabrın 24-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən təməli qoyulan "Ağ Şəhər" layihəsi uğurla həyata keçir, nəticədə bura ekoloji cəhətdən ən çirkli ərazidən ən təmiz müasir şəhər mərkəzinə çevrilməkdədir.

Onu da qeyd edək ki, Ağ Şəhərin layihələndirilməsi işinə Azərbaycan mütəxəssisləri ilə yanaşı, dünyanın bir sıra aparıcı mühəndis və memarlıq şirkətləri, o cümlədən məşhur "Atkins" şirkəti, "Fosters+Partners" memarlıq şirkəti və Amerika Birləşmiş Ştatlarının "F+A Architects" arxitektura bürosu, UNStudio, CallisonRTKL, Gensler və bir sıra digər şirkətlər cəlb edilib.

Mərhələli şəkildə inşası həyata keçirilən Ağ Şəhərin mərkəzi park rayonunda əksər binaların, ictimai yerlərin tikintisi başa çatıb, infrastruktur layihələri gerçəkləşdirilib. Müxtəlif enli və uzunluqlu küçələrin tikintisi, yeraltı kommunikasiya infrastrukturunun qurulması tamamlanıb. Əlil arabaları üçün panduslar, yerüstü piyada keçidləri, qoruyucu dayaqlar salınıb. Daxili İşlər Nazirliyinin "Təhlükəsiz Şəhər" xidməti tərəfindən videomüşahidə kameraları, "Azərsu" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətləri, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən yeraltı kommunikasiyalar, "Delta Telecom" MMC tərəfindən İT kanal sistemləri çəkilib. Onu da qeyd edək ki, layihələndirmə zamanı Ağ Şəhərdə inşası nəzərdə tutulan Bakı Metropoliteni stansiyalarının memarlıq üslubu üzrə konsepsiya da hazırlanıb.

## Açıq səma altında incəsənət sərgisi

2017-ci ildə istifadəyə verilmiş Mərkəzi Park ərazisi gözəlliyi ilə heyranlıq yaradır. 8, 20 və 36 mərtəbəli binalardan, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış tikililərindən, ticarət və iaşə obyektlərindən, orta məktəb, ofis və inzibati binalardan ibarət bu ərazi real mənzərədən çox məşhur bir rəssamın yağlı boya ilə işlədiyi tabloya bənzəyir.

Ağ Şəhər bir sıra yerli və beynəlxalq incəsənət ustalarının öz əsərlərini nümayiş etdirdiyi bir məkana çevrilib. Bu baxımdan Bulvar küçəsini bəxti gətirmiş hesab etmək olar. Burada yerli və xarici rəssamların incəsənət əsərləri sərgilənir. Heykəltaraş Enrike Kabreranın "La Gran Manzana" ("Böyük alma") əsəri onun ən mühüm sənət layihələrindən biridir. Nyu Yorkda quraşdırılmış "Böyük alma" əsəri bu şəhərin rəmzini təcəssüm etdirir. Ağ Şəhər dünyada ikinci məkandır ki, "La Gran Manzana"nın ikinci nüsxəsi burada sərgilənir.

Şərq təqviminə görə, 2024-cü ilin rəmzi əjdahadır. Azərbaycan MAAS incəsənət qurumunun müasir poliqonal üslubda hazırladığı, hündürlüyü 4,2 metr olan "Əjdaha" heykəli 2024-cü ilin rəmzinə həsr olunub. Cozef Klibanskinin "Mütəfəkkir" əsəri müasir insanın texnoloji inkişaf dövründən, ekoloji problemlər və qlobal istiləşmə problemlərindən yaranan həyəcanlarını əks etdirir. Bürüncdən hazırlanmış heykəl artıq bütün dünyada sənətsevərlərin rəğbətini qazanmışdır. Cozef Klibanski 2014-cü ildə Bakının zəngin memarlığından, qədimlik və müasirliyin sintezindən ilhamlanaraq Azərbaycan paytaxtının gözəlliyini tərənnüm edən "Gözəl Bakı" əsərini yaradıb.

Ərazidə yerləşdirilmiş "Qarabağ atı" heykəli Qarabağ Atları meydanında yerləşəcək "Qarabağ atları" kompleksindəki 7 atdan biridir. Qarabağ atları Azərbaycanın rəmzlərindən biri olaraq ənənələrə sadiqliyin, eləcə də daim irəliləyişin təcəssümüdür.

"Qarabağ atları" kompleksi Azərbaycanın Qarabağ torpaqlarının 30 illik işğaldan azad edilməsi uğrunda Vətən müharibəsindəki zəfərinə həsr edilib. Yeddi Qarabağ atından ibarət kompleks Dallas şəhərində yerləşən "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri ilə dünyada məşhur amerikalı heykəltaraş Robert Sammers tərəfindən həyata keçirilir. Kompleksin təməli dövlət başçısı tərəfindən 2022-ci ilin dekabrında Ağ Şəhərdə qoyulub.

## Ağdamdan gətirilən dağdağan ağacı

Ağ Şəhər layihələndirilən zaman yaşayış massivinin ərazisində yaşıl zonalar - park və xiyabanların salınmasına xüsusi diqqət verilib. Salınan bağlar arasında diqqətçəkən məqam Dağdağan bağının olmasıdır.

Azərbaycanın simvollarından biri olan dağdağan (celtis) ağacının vətəni Qarabağdır. Xatırladaq ki, Prezident İlham Əliyev 2021-ci ilin mayında işğaldan azad edilmiş ərazilərə səfər çərçivəsində Ağdam şəhərində dağdağan ağacı əkmişdir. Gözoxşayan bağ Ağ Şəhərə əlavə bir gözəllik qatır. Qeyd edək ki, dağdağan ağacları Ağ Şəhərə Qarabağdan, o cümlədən Ağdamdan gətirilib.

## Ecazkar mərkəz

Vətən müharibəsində qələbəmizin və suverenliyimizin bərpasına həsr olunan 12 mərtəbəli "Ağ Şəhər 2020 Biznes Mərkəzi"nin inşasına 2020-ci ildə başlanılıb. Biznes mərkəzi Mərkəzi Bulvar küçəsində - şimalda Babək prospekti və Qarabağ Atları meydanından başlayaraq, Fəvvarələr meydanından keçərək, 8 Noyabr prospekti üzərindəki gözoxşayan piyada körpüsü ilə dənizkənarı Ağ Şəhər bulvarına gedən ikikilometrlik gəzinti yolunda yerləşir.

Bina ətraf mühitin mühafizəsi qaydalarına tam uyğundur. Biznes mərkəzi BREEAM beynəlxalq ekoloji sertifikatlaşdırma təşkilatından sertifikat alıb. Bu, 2014-cü ildə istifadəyə verilmiş "Bakı Ağ Şəhər" ofis binasından sonra BREEAM ekoloji sertifikatı alan ikinci binadır. Binanın ətrafında əsaslı abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib, müasir infrastruktur yaradılıb. Biznes mərkəzində 150 ofis yerləşir. Biznes nümayəndələri fərdi soyutma sistemi, təbii havalandırma, mərkəzi istilik sistemi, eyvanları, 386 yeraltı və 62 yerüstü dayanacaqları olan 3 metr hündürlüyündə ofislərdən, parkinq yerləri üçün təbii işıqlandırma, elektrik avtomobillərinin qidalanması üçün yerlərdən, velosipedlər üçün pulsuz parkinq və sair bu kimi xidmətlərdən istifadə edə biləcəklər. Binada informasiya texnologiyalarından dayanıqlı istifadə məqsədilə Data Center yaradılıb. Binanın texniki idarəçiliyi mərkəzləşdirilmiş müasir BMS proqramı vasitəsilə həyata keçirilir. Biznes mərkəzinin girişi bina üçün xüsusi olaraq yaradılmış bürünc medalyonla bəzədilib. Birinci mərtəbəsində iaşə obyektləri üçün sahələr ayrılıb. Eyni zamanda 24 saat ərzində piyadaların rahat keçidi üçün açıq olan geniş yaraşıqlı zalda Qara Şəhərin Ağ Şəhərə çevrilməsini əks etdirən fotoşəkillərdən ibarət guşə yaradılıb. Foyedə həmçinin dünyanın aparıcı memarlıq şirkətləri tərəfindən layihələndirilmiş müasir binaların maketləri yerləşdirilib.

Xatırladaq ki, yeni binaların layihələndirilməsi işləri zamanı Ağ Şəhərin ekoloji ənənələrinə və dünyanın müasir ekoloji tələblərinə uyğun olaraq yaşıl bina, enerjidən qənaətli istifadə prinsiplərinə və beynəlxalq BREEAM, LEED sertifikatlarına uyğunlaşdırılması məqsəd kimi qoyulub. Binanın 8-ci mərtəbəsi xüsusi dizaynla təmir edilib və burada əməkdaşlar üçün rahat iş məkanları yaradılıb. Diqqətçəkən məqamlardan biri də binada Ağ Şəhərdə görüləcək işlər və ekoloji tədbirlər haqqında stendlərin quraşdırılmasıdır.

## Bakının yeni rəmzi olacaq körpü

Möhtəşəmliyi ilə Bakının yeni nişanlarından birinə çevrilməsini vəd edən Ağ Şəhərin şimal və cənubunu 8 Noyabr prospekti üzərindən birləşdirəcək piyada körpüsündə ciddi iş gedir. İnşası Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sifarişi ilə "Evrascon" şirkəti tərəfindən həyata keçirilən, eni 7-14 metr, uzunluğu 237 metr olan körpünün üst qatı cənubdan ictimai mərkəzin 3-cü mərtəbəsinə, şimaldan eyni zamanda Fəvvarələr meydanı parkına, 1-ci Yaşıl Ada küçəsinə, alt qatı isə 8 Noyabr prospektində yerləşən Zaman meydanına çıxışı nəzərdə tutulub. Körpüdə yerləşdiriləcək eskalator və liftlər vasitəsilə piyadalar rahat gediş-gəliş edə biləcəklər.

Layihələndirmə yerli mühəndislərlə bərabər, Almaniyanın Werner Sobek şirkəti, memarlıq həlləri dünyada aparıcı memarlıq bürosu kimi tanınmış Niderlandın UNStudio şirkəti tərəfindən işlənilmişdir. UNStudio şirkəti "Bakı Ağ Şəhər" layihəsi çərçivəsində investorların sifarişi ilə 8 Noyabr prospektinə çıxan hissədə qoşa binaların və bank binasının layihəsini də həyata keçirib. Bu şirkət memarlıq, infrastruktur və şəhərsalma sahəsində ABŞ, Niderland, Avstriya, Tayvan, Sinqapur, Çin və digər ölkələrdə məşhur layihələrin müəllifidir. Körpünün layihələndirilməsinin ilkin mərhələsində Londonda Millennium körpüsü, Strasburqda Kehl körpüsü, Kaliforniyada Sundial körpüsü kimi dünyanın ən heyranedici piyada körpülərinin tərtibat və tikintisi araşdırılıb. Piyada körpüsünün altında yerləşən Zaman meydanında beynəlxalq sənətkar Konstantin Grcic tərəfindən xüsusi olaraq "Bakı Ağ Şəhər" layihəsi üçün hazırlanmış özəl dizaynlı İsveçrənin MobaTime şirkətinin istehsalı olan 7 ədəd saatdan ibarət SEVEN PUBLIC CLOCK kompozisiyası nəzərdə tutulub.

Verilən unikal dizayn özündə piyada təhlükəsizliyi, cazibədar işıqlandırma, küçə mebeli, rahat hərəkət üçün geniş məkan və cəlbedici atmosferi birləşdirir. Dizaynda işlənilmiş landşaft isə piyada hərəkətini gözəl bir gəzintiyə çevirəcəkdir. Bütün bunlar körpünü Bakı sakinlərinin və turistlərinin sevimli məkanı edəcək.

"Bakı Ağ Şəhər" dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi müxtəlif beynəlxalq və yerli mükafatlara, Honkonqda "MIPIM Asia Awards 2011" müsabiqəsində "Mərkəzi və Qərbi Asiyanın ən yaxşı gələcək layihəsi" nominasiyasına, Dubayda "Cityscape Global" və bir sıra digər sərgilərdə "Ən yaxşı şəhərsalma layihəsi" kimi müxtəlif mükafatlara layiq görülüb.

Ağ Şəhərin geniş, yaraşıqlı küçələrindən keçib, əsrarəngiz gözəlliklərini görüb bu şəhərin təməlini qoyan zaman Prezident İlham Əliyevin dediyi "Ağ Şəhər nəinki Cənubi Qafqazda, yaxud da bu böyük regionda, dünya miqyasında ən gözəl şəhərsalma layihələrinin birinə çevriləcəkdir" sözlərini xatırlayıb şəhərimizlə qürur duyduq...

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

**237 metr uzunluğu olan körpü paytaxtın yeni quruculuq simvolu olacaq**










AZERBAIJAN COP29
Yaşıl dünya naminə həmrəylik ili 2024



# Maştağa aerostansiyasında aeroloji müşahidələr bərpa edilib, ilk radiozond hava şarı buraxılıb





**Avqustun 9-da Milli Hidrometeorologiya Xidmətinin Maştağa qəsəbəsində yerləşən aeroloji stansiyasında müşahidələr bərpa edilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayevə Maştağa İxtisaslaşmış Aeroloji Stansiyasından radiozondun buraxılmış trayektoriyası və iş prinsipi barədə ətraflı məlumat verilib. Sonra ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin və nazirliyin səlahiyyətli nümayəndələrinin iştirakı ilə ilk radiozond hava şarı buraxılıb.

Media nümayəndələrinə açıqlama verən Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov qeyd edib ki, Erkən Xəbərdarlıq Sisteminin







əsas tərkib hissələrindən olan aeroloji müşahidələr zamanı havaya buraxılan radiozond 30 kilometrdən artıq yüksəkliyədək və 200 kilometr radiusda mütəmadi olaraq meteoroloji göstəriciləri - temperaturu, rütubəti, küləyin parametrlərini, atmosfer təzyiqini öyrənmək imkanı verəcək, bu da öz növbəsində əhaliyə təqdim olunan hidrometeoroloji proqnoz və xəbərdarlıqların dəqiqliyini daha da artıracaq. Radiozond atmosfer təbəqələrinə qalxdıqca müxtəlif hündürlüklərdə ölçülmüş meteoroloji elementləri radiosiqnallar vasitəsilə serverə ötürəcək. Aeroloji müşahidələr hava proqnozlarının tərtib edilməsində mühüm əhəmiyyət kəsb edəcək və bu müşahidə sisteminin bərpası ölkəmizdə hidrometeorologiya sahəsinin inkişafına töhfə verəcək.

Xidmət rəisinin sözlərinə görə, aeroloji müşahidələr dövlət investisiya layihəsi çərçivəsində bərpa edilib və ölkəmizin beynəlxalq hava proqnozu yayımının tərkib hissəsi olaraq Qlobal Erkən Xəbərdarlıq Sisteminə inteqrasiyası davam edəcək. Yeni stansiyanın fəaliyyətə başlaması, eyni zamanda Azərbaycanda iqlim dəyişmələrinə uyğunlaşma sahəsində həyata keçirilən mərhələli tədbirlərin tərkib hissəsi kimi qiymətləndirilir. Yaxın gələcəkdə ölkəmizdə Erkən Xəbərdarlıq Sisteminin inkişaf etdirilməsi istiqamətində işlər davam etdiriləcək.

## *Umayra TAĞIYEVA:* "Maştağa İxtisaslaşmış Aeroloji Stansiyasında müşahidələrin bərpa olunması böyük əhəmiyyətə malikdir"




**"Bütün dünyada olduğu kimi, Azərbaycanda da atmosferin müxtəlif parametrlərində daim müşahidələr aparılır. Bu məlumatların vacibliyi ondan ibarətdir ki, istənilən təhlükəni əvvəlcədən proqnozlaşdırmaqla fəsadları minimuma endirmək mümkündür".**

AZƏRTAC xəbər verir ki, bu sözləri ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva jurnalistlərə açıqlamasında söyləyib.

O bildirib ki, Maştağa İxtisaslaşmış Aeroloji Stansiyasında müşahidələrin bərpa olunması ölkəmizdə hidrometeorologiya sahəsinin inkişafında böyük əhəmiyyətə malikdir. Bu həm də atmosferin müxtəlif təbəqələri üzrə dəyişmələri müşahidə etməyə imkan verir.

## Naxçıvanda 550 hektar ərazini əhatə edən yaşıllaşdırma proqramı hazırlanıb

**"Bu il muxtar respublikanın 550 hektar ərazisini əhatə edən yaşıllaşdırma proqramı hazırlanıb, yaz əkin mövsümündə 431 hektar sahədə əkin işləri aparılıb".**




AZƏRTAC xəbər verir ki, bunu Naxçıvan Biznes Mərkəzində "COP29, İqlim dəyişikliklərinin ətraf mühitin komponentlərinə təsirləri" mövzusunda keçirilən konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli deyib.

Fuad Nəcəfli bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planında meşə fondunun açıq sahələrində yeni meşəliklərin salınması və mövcud meşə sahələrinin bərpa edilməsi, yaşıllıqların mühafizəsi və artırılması əsas fəaliyyət istiqaməti kimi müəyyən edilib. Bu da muxtar respublikada iqlim dəyişikliklərinin ətraf mühit komponentlərinə təsirlərinin minimuma endirilməsi işinə mühüm töhfə verəcək. Ona görə də meşə örtüyünün artırılması, yeni meşə zolaqlarının və yaşıllıqların salınması, meşəsalma və ağacəkmə aksiyalarının, "yaşıl nəqliyyat"a keçid və metan emissiyalarının azaldılması 2024-cü ildə diqqətdə saxlanılıb. Belə ki, bu il muxtar respublikanın 550 hektar ərazisini əhatə edən yaşıllaşdırma proqramı hazırlanıb, yaz əkin mövsümündə 431 hektar sahədə əkin işləri aparılıb. Həmçinin dövlət proqramında mərkəzləşdirilmiş tullantı poliqonunun və bərk-məişət tullantılarının emalı müəssisəsinin yaradılması və bu sahədə maddi-texniki bazanın gücləndirilməsi nəzərdə tutulub ki, bu da gələcəkdə tullantı sektoru üzrə emissiyaların azaldılması baxımından mühüm addım olacaq.

# Daşkəsəndə Aqrar Biznes Festivalı keçirilib

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin bölgələrdə keçirdiyi Aqrar Biznes Festivalı davam edir. Növbəti festival Daşkəsən rayonu Heydər Əliyev Mərkəzinin qarşısında təşkil olunub.**








Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, festivalda ətraf rayonlardan olan fermerlər də iştirak ediblər.

Tədbirə qatılmış dövlət qurumları öz məhsul və xidmətləri barədə təqdimatlar edib, fermerlərə müasir suvarma sistemləri, kənd təsərrüfatı texnikaları, toxum, gübrə, pestisid nümunələri və iqlimə dost texnika və texnologiyalar və onlardan istifadə qaydaları barədə məlumat veriblər. Müxtəlif şirkətlərin təklif etdiyi kənd təsərrüfatı texnikalarının üzərinə yerləşdirilən və uzaqdan idarə edilən GPS texnologiyaları iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Festivalda həmçinin alternativ enerji qurğuları, ekoloji məhsullar, iqlim dəyişikliyinə davamlı yerli meyvə-tərəvəz toxumları sərgilənib.

Festival çərçivəsində ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) təşəbbüsünün prioritetlərinə uyğun olaraq su və torpaq resurslarından səmərəli istifadə, biomüxtəliflik mövzularında videoçarxlar nümayiş olunub.

Həmçinin festival çərçivəsində fermerlərə aqrar sahənin prioritet istiqamətlərinə uyğun olaraq Aqrar Xidmətlər Agentliyi tərəfindən "Bitki xəstəlik və zərərvericilərinə qarşı inteqrir mübarizə üsulları mövzusunda" təlim keçirilib.

Qeyd edək ki, Aqrar Biznes Festivalı sahibkarlarla fermerləri bir araya gətirən, maarifləndirmə prosesinə mühüm töhfə verən platformadır. Festival çərçivəsində aqrobiznesin inkişafında rolu olan tərəflər bir araya gətirilib, maliyyə dəstəyi və dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün şərait yaradılıb. Aqrar təyinatlı kreditlər, müxtəlif kredit məhsulları, aqrar kreditlərin kənd təsərrüfatında yaratdığı əlavə dəyər və digər məsələlərlə bağlı fermerlərə ətraflı məlumatlar təqdim edilib.

# Maliyyə COP29-un əsas məsələsidir

## Bu, xarici mətbuatın da mövzusuna çevrilib

**Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində əsas tutduğu çoxşaxəli istiqamətlərdən biri də "yaşıl enerji"ni ölkədaxili ərazilərdə daha da inkişaf etdirməkdir.**




Bərpaolunan və alternativ enerji əsasında istehsal edilən elektrik ixracı Azərbaycanda enerji sahəsi üçün yeni eranın başlanğıcı hesab olunur. 2030-cu ilədək isə həmin enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəfə alınıb. Bu addım enerji keçidi sahəsində texnoloji həllər məsələsində ölkəmizin uğurlarını dünyaya nümayiş etdirmək imkanı verəcək.

Sirr deyil ki, Azərbaycan "yaşıl enerji"yə keçidə yönəlmiş innovativ yanaşmalar üzrə regionda liderə çevrilib və iqlim dəyişmələrinin təsirlərilə mübarizəyə ciddi töhfə verərək, COP29-la bağlı üzərinə düşən vəzifəni ən yüksək səviyyədə yerinə yetirir, hazırlıq işləri layiqincə görülür. Qlobal tədbirin Bakıda keçirilməsinə qərar veriləndən dərhal sonra Təşkilat Komitəsi yaradıldı, əlaqədar qurumlar səfərbər edildi. Bəşəriyyətdə baş verən təbii və süni fəlakətlərin, təkrarlanan faciələrin planeti ölü məzarlığına çevirməməsi üçün COP tədbirləri vacibdir, qaçılmazdır. Təbii ki, Azərbaycan belə qlobal tədbirlərdən kənarda qala bilməzdi, iqlim dəyişmələri ilə mabarizədə nə qədər irəli getdiyini sərgiləməli idi. Qarabağ və Şərqi Zəngəzurun, eləcə də Naxçıvanın "yaşıl zona" elan edilməsi bu məqsədin təsdiqidir. Kimsə bunu görməzlikdən gələ bilməz. Bu baxımdan COP29-a evsahibliyi etmək öhdəliyi Azərbaycanın qlobal nüfuzunun artmasını sürətləndirir. Bu həm də o deməkdir ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizəyə sadiqdir, əlindən gələni etməyə hazırdır. Bu gün ölkəmiz təkcə ənənəvi enerji resursları ilə deyil, həm də artan "yaşıl texnologiyalar" sahəsində regional liderdir.

COP29, əslində, sadəcə bir konfrans deyil, bir prosesdir və builki tədbirdən gözlənilən nəticələrdən biri maliyyə məsələsidir. Hələ 2015-ci ildə Paris sazişini imzalayan tərəflər öhdəlik götürdülər ki, 2020-ci ilə kimi inkişaf etməkdə olan ölkələrdə bu sahəyə ayrılacaq vəsait 100 milyard dollar həcmində olacaq. COP29-da bu rəqəmə yenidən baxılacaq və qərar veriləcək. Çünki iqlim böhranı və onun dağıdıcı nəticələri bütün dünyada insanlar üçün ciddi təhlükədir.

Bütün bunlar xarici medianın diqqətindən yayınmır. Avropa və ABŞ mətbuatı Azərbaycanın COP29-la bağlı hazırlıqlarının yüksək səviyyədə keçirildiyini etiraf edir. Məsələn, təxminən 10 gün əvvəl ABŞ-nin nüfuzlu "New York Times" qəzetində Azərbaycanın COP29-a sədrliyinə həsr olunmuş "Dağlıq kurort, şərab, qoyun kababı və çoxlu iqlim söhbətləri" başlıqlı məqalə verilib. Müəllifi Maks Berak yazır ki, şərab ölkəsi olan Azərbaycanda, Qafqazın ətəklərinə mənzərəsi olan hoteldə dünyanın aparıcı iqlim diplomatları qlobal istiləşmə ilə mübarizə və onun təsirlərindən ən çox əziyyət çəkən yoxsul və həssas ölkələrə yardım üçün böyük miqdarda pulların necə ayrılacağını müzakirə etmək üçün bir araya gəliblər. Görüş noyabrda Bakıda keçiriləcək COP29 konfransına hazırlıq xarakteri daşıyır. "Əvvəlki sammitlərdə dünya ölkələri var gücləri ilə iqlim dəyişikliyi ilə mübarizədə əsas məsələlər, əsasən də bəşəriyyətin mədən yanacağından asılılığının mümkün qədər tez aradan qaldırılması barədə razılığa gəlməyə çalışıb. Ötənilki tədbirdə dünya bu barədə razılıq əldə edib. Lakin bu, yalnız kağız üzərindədir. Bu, nə qədər vəsait tələb edir, kim ödəyəcək?" yazan müəllif COP29-da məhz bu məsələlərə aydınlıq gətiriləcəyini əlavə edib.

Maks Berak daha sonra qeyd edir ki, iqlim dəyişikliyinin təsirlərindən əziyyət çəkən daha yoxsul ölkələr zəngin ölkələrdən enerji keçidlərini sürətləndirməyə kömək etmələrini istəyir. On il əvvəl Parisdə keçirilmiş iqlim sammitində imzalanmış razılaşmaya əsasən, bu məsələdə əsas məsuliyyət Avropa ölkələri, ABŞ, Kanada, Yaponiya, Avstraliya və Yeni Zelandiyanın üzərinə düşür: "Lakin bu siyahı 1990-cı illərin əvvəllərindəki inkişaf səviyyələrinə əsaslanırdı və o vaxtdan bəri dünya çox dəyişib. Siyahıdakı ölkələr sonradan zənginləşmiş dövlətlərin, o cümlədən Çin, Sinqapur və Səudiyyə Ərəbistanı kimi dövlətlərin siyahıda yer almamasını ədalətsizlik adlandırır. Amma Bakıda sammit zamanı "İqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədi" adlı paketin imzalanması planlaşdırılır".

Qeyd edək ki, COP29-da karbon emissiyasının azaldılması, qlobal bərpaolunan enerji və enerji səmərəliliyi məsələləri Azərbaycan tərəfindən təşviq olunacaq. Bundan başqa, "yaşıl dəhliz"lə bağlı təkliflər müzakirə ediləcək. Çünki Azərbaycan bu məsələdə ambisiyalıdır. Qlobal konfransın gündəliyində olan əsas mövzu isə iqlim dəyişmələri ilə mübarizə üçün maliyyə məsələsidir. Artıq inkişaf etməkdə olan ölkələrdə iqlim maliyyələşməsinin mühüm sütunu olan "İqlim Dəyişmələri üzrə İtki və Zərər Fondu"na vəsait ayrılması prosesinə başlanılıb. Avstriya bu dəfə fonda 15 milyon avro ödəyəcək. Bu barədə ölkənin "Die Presse" qəzeti yazır: "Neft və qazla zəngin Azərbaycanın paytaxtı Bakıda keçiriləcək növbəti iqlim konfransına üç ay qalmış Avstriya nümunə göstərir. İtki və Zərər Fonduna töhfə 15 milyon avro artaraq 25 milyon avroya çatıb. Vəsaitlər iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərini və iqlimlə bağlı hadisələrin vurduğu geri qaytarıla bilməyən zərərin kompensasiyasını maliyyələşdirmək üçün nəzərdə tutulub. Ümumilikdə, Avstriya 2023-cü ildən 2027-ci ilə qədər fonda 50 milyon dollar ayıracağını vəd edib".

Təəssüf hissi ilə qeyd etməliyik ki, hər il COP tədbiri keçirilsə də, dünyanın hegemon dövlətləri bəşəriyyəti təhdid edən problemin aradan qaldırılmasına bir çox halda biganə qalırlar. Görünən mənzərə ondan xəbər verir ki, hər kəs qlobal problemdən danışsa da, çox az ölkə bu istiqamətdə iş aparır, hətta bəziləri götürdükləri öhdəliyə əməl etmirlər. Azərbaycan isə şübhəsiz, hər zaman olduğu kimi, bu dəfə də öz missiyasını ləyaqətlə yerinə yetirəcək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Biləsuvarda günəş-elektrik stansiyasının tikintisinə hazırlıqla bağlı müzakirə aparılıb

Biləsuvarda Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən inşa ediləcək 445 MVt gücündə günəş-elektrik stansiyasının tikintisinə hazırlıq işlərinin faktiki vəziyyətinin qiymətləndirilməsi və gələcəkdə bu istiqamətdə görüləcək işlərin müzakirəsi ilə bağlı ilk görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüş Biləsuvar Rayon İcra Hakimiyyətində "Masdar" şirkətinin, WSP təşkilatının, Asiya İnkişaf Bankının, Asiya İnfrastruktur İnvestisiya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) mütəxəssislərinin iştirakı ilə təşkil olunub.

Günəş-elektrik stansiyası Biləsuvar rayonunun inzibati ərazisində dövlət mülkiyyətində olan 1454 hektar torpaq sahəsində inşa ediləcək.

Qeyd edək ki, "Masdar" şirkəti ilə bağlanmış müqavilələrə əsasən, Biləsuvarda (445 MVt), Neftçalada (315 MVt) iki günəş-elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək-elektrik stansiyası tikiləcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Mərkəzi Asiya ölkələri ilə iqtisadi əlaqələr intensiv inkişaf edir

### Bunun başlıca səbəbi Azərbaycanın və bu ölkələrin dövlət başçılarının qarşılıqlı münasibətləridir

**Son bir neçə ildə Azərbaycanın və Mərkəzi Asiya dövlət başçılarının qarşılıqlı səfərləri ölkələrimiz arasında iqtisadi əməkdaşlığın xeyli genişlənməsinə təkan verib. Bu səfərlər çərçivəsində yeni sənədlər imzalanır, yeni layihələrin ideyası yaranır, əməkdaşlıq və tərəfdaşlığın perspektivləri müəyyənləşdirilir. Prezident İlham Əliyevin Qazaxıstanda Mərkəzi Asiya və Azərbaycan Respublikasının dövlət başçılarının görüşündə iştirak etməsi də şübhəsiz ki, bu əlaqələrin daha da möhkəmlənməsində yeni bir addım olacaq.**

Məlumdur ki, ölkəmiz Şərqlə Qərb arasında mühüm qovşağa çevrilib. Ələt Dəniz Ticarət Limanının imkanlarının getdikcə artması, gəmiqayırma zavodumuzun fəaliyyətinin genişləndirilməsi, Xəzərdəki böyük ticarət donanmamızın olması, bir sözlə, nəqliyyat-logistika şəbəkəmiz bu məsələdə önəmli rol oynayır. Regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və postmünaqişə dövrünün reallığı olan Zəngəzur dəhlizi Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün də yeni fürsətlər yaradır. Ölkələrimizin maraqları bu məsələdə də üst-üstə düşür.

Qazaxıstandan söz düşmüşkən, Azərbaycanın bu ölkə ilə əməkdaşlığında ticarət-iqtisadi əlaqələr xüsusi yer tutur. Ölkəmizdə Qazaxıstan investisiyalı onlarca kommersiya qurumu (sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, xidmət) qeydiyyatdadır. Qazaxıstandan Azərbaycana 102 milyon dollardan çox, Azərbaycandan Qazaxıstana isə 205 milyon dollardan çox investisiya qoyulub. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 598,47 milyon dollar təşkil edib. İkitərəfli münasibətlərin inkişafına 1999-cu ildə yaradılmış Ticari-İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya mühüm töhfə verir.

Ölkələrimiz arasında neft və neft məhsullarının ticarəti sahəsində uğurlu əməkdaşlıq davam etdirilir. Qazaxıstan mənşəli xam neftin Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə vurularaq dünya bazarına nəqlini xatırlatmaq kifayətdir. Enerji sektorunda əməkdaşlıq inkişafdadır. SOCAR ilə "KazMunayGaz" arasında ötən il imzalanan yol xəritəsi əlaqələrin genişləndirilməsi üçün yeni imkanlar açıb. Qarşılıqlı səmərəli əməkdaşlıq, neftin emalı, tranziti, ticari-iqtisadi münasibətlər Azərbaycanın sürətli inkişafına təkan verərək onu regional enerji mərkəzinə çevirib.

Azərbaycan və Tacikistan dövlətləri rəhbərlərinin siyasi iradəsi və dostluq münasibətləri ölkələrimizin əlaqələrinin bütün istiqamətlər üzrə inkişaf etməsində mühüm rol oynayır. Azərbaycanla Tacikistan arasında da əlverişli biznes və investisiya mühiti yaradılıb. Bu ilin əvvəlindən ölkələrimiz arasında ticarət dövriyyəsi nəzərəçarpacaq dərəcədə artıb. İstər idxal-ixracın genişlənməsi, istərsə də bir sıra sahələrdə əməkdaşlıq qurulması üçün potensial daha böyükdür.

Təsadüfi deyil ki, iki ölkənin müvafiq qurumları və sahibkarlıq subyektləri arasında birgə təşəbbüslərin reallaşdırılmasını, sənaye, kənd təsərrüfatı, investisiya, turizm və s. sahələrdə əməkdaşlığı nəzərdə tutan sənədlər imzalanıb.

Tacikistanın Orta dəhlizdən istifadə etməsi nəql olunan yüklərin həcminin artmasına və mənzilbaşına vaxtında çatdırılmasına imkan verir. Cari ilin ilk 4 ayı ərzində Tacikistanın Orta dəhlizlə yükdaşımalarının həcmi 86 faiz artıb. Ötən il isə Tacikistan Orta dəhlizlə 2,4 milyon ton yük ixrac edib. Nəqliyyat, sənaye, o cümlədən yüngül, kimya və dağ-mədən sənayeləri, kənd təsərrüfatı, tranzit sahələrində əməkdaşlıq etmək üçün də böyük potensial mövcuddur.

Tacikistanla Azərbaycan dağ-mədən yataqlarının işlənməsi sahəsində əməkdaşlıq üçün imkanlardan geniş istifadə edə bilərlər. Tacikistanlı mütəxəssislər azərbaycanlı həmkarlarına bu sahədə birgə layihələrin hazırlanmasını təklif edirlər. Qeyd edək ki, dost ölkənin dağ-mədən sektorundakı 800 filiz yatağından yalnız 100-ü istismar olunur. Həmçinin qida məhsullarının idxal-ixracını artırmaq mümkündür. Qeyd edək ki, iki dövlət arasında illik ticarət dövriyyəsinin həcmi 6 milyon dollardır. Hər iki ölkənin iqtisadi potensialı ticarət dövriyyəsinin artırılmasına imkan yaradır. Qida məhsullarının ticarətinin artırılması bu işə təkan verə bilər.

Bakıda keçirilən Azərbaycan-Tacikistan biznes-forumu çərçivəsində şirkətlər arasında ticarət, dağ-mədən və kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair 8 sənədin imzalanması ilə iki ölkənin iqtisadi əməkdaşlığı yeni mərhələyə qədəm qoyub.

Hadisələrin inkişafı Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığının da genişlənəcəyindən xəbər verir. Bunu iqtisadi münasibətlərdə əsas istiqamətlərdən olan ticarət əməkdaşlığına aid rəqəmlər də təsdiqləyir. Belə ki, ötən il Özbəkistanla ticarət dövriyyəsinin həcmi 180 milyon dollara yaxın olub. Bu ilin ilk beş ayında isə həmin göstərici təqribən 70 milyon dollar təşkil edib.

Azərbaycanda sənaye, ticarət, nəqliyyat, tikinti, kənd təsərrüfatı və xidmət sahələri üzrə 90-dan çox Özbəkistan şirkəti qeydiyyatdan keçib. Sənayeyə birgə investisiya qoyuluşu uğurlu nəticələrini göstərir. Məsələn, Hacıqabul Sənaye Parkında birgə layihə çərçivəsində avtomobil istehsal edilir. Bu il iyulun 1-nə olan məlumata görə, əməkdaşlıq çərçivəsində 5300-dən çox "Chevrolet" avtomobili buraxılıb. Bundan başqa, birgə pikap, yük maşını və avtobus istehsalı həyata keçirilir.

Xatırladaq ki, Azərbaycanda pambıqçılıq və ipəkçilik klasterlərinin yaradılması istiqamətində də qardaş ölkə ilə uğurlu işbirliyi davam etdirilir. Hər iki ölkənin nəqliyyat-tranzit sahəsində də böyük potensialı var.

İkitərəfli əməkdaşlığın digər perspektivli sahəsi enerji sektorudur. SOCAR və "Uzbekneftegaz" ASC Azərbaycanda və Özbəkistanda neft yataqlarının birgə işlənməsi, neft-qaz sektorunda layihələrin həyata keçirilməsi və digər sahələrdə əməkdaşlıq edirlər.

Azərbaycan türk dünyasının daha bir ölkəsi ilə iqtisadi əlaqələrini genişləndirir. Azərbaycan və Qırğızıstan arasında iqtisadi əlaqələr də durmadan inkişaf edir. Təkcə o faktı qeyd etmək kifayətdir ki, Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun vəsaitləri artırılır. Çünki bu imkandan istifadə etmək istəyən sahibkarlardan çoxlu müraciətlər daxil olur. Beləliklə, investisiya sahəsində qarşılıqlı fəaliyyətin yeni üfüqləri görünür.

Eləcə də gələcəkdə ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması üçün perspektivlər mövcuddur. Nəqliyyat sahəsində də fəal əməkdaşlıq nəzərdə tutulur. Çünki həm Qırğızıstanda, həm də Azərbaycanda nəqliyyat sahəsində iri infrastruktur layihələri həyata keçirilir. Buna görə də fəaliyyətlərin birləşdirilməsi və əlaqələndirilməsi yeni dəhlizlər açmaq, yeni nəqliyyat arteriyaları yaratmaq üçün müstəsna dərəcədə əhəmiyyətlidir.

Bu il aprelin 24-də imzalanmış sənədlər bir sıra sahələrdə əməkdaşlığın inkişafı üçün məhz möhkəm baza rolunu oynayacaq.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında enerji sahəsində əməkdaşlıq həm ikitərəfli, həm də çoxtərəfli formatda səmərəli şəkildə davam edir. Bu günlərdə Mərkəzi Asiya ölkələrinin energetika nazirlərinin Astanadakı görüşü də deyilənləri təsdiqləyir. Bu, Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi layihəsi üzrə üçtərəfli görüş idi.

Məlum olduğu kimi, yaxın gələcəkdə Azərbaycandan Avropaya "yaşıl enerji" dəhlizi də uzanacaq. Belə ki, hələ 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Qazaxıstan və Özbəkistan da qərara gəliblər ki, Azərbaycan üzərindən bu dəhlizə özlərinin istehsal etdikləri bərpaolunun enerjini qoşsunlar. Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və nəqli sahəsində strateji tərəfdaşlıq haqqında Saziş layihəsinin mətni də artıq razılaşdırılıb. Azərbaycandan keçən bu və digər ixrac dəhlizləri "yaşıl enerji"nin Mərkəzi Asiya ölkələrindən Avropaya nəqli üçün geniş perspektivlər açır. Belə ki, bu dəhlizlərə çıxış Mərkəzi Asiya ölkələrinin elektrik enerjisi resurslarının ixracı üçün bazarların şaxələndirilməsini təmin edə bilər.

Yeri gəlmişkən, qeyd edək ki, alternativ enerji istehsalı üçün Tacikistanın da böyük potensialı var. Bu ölkədə elektrik enerjisinə tələbatın 95 faizi su-elektrik stansiyalarında istehsal olunan enerji hesabına ödənilir. Ölkənin təbiəti günəş və külək enerjisinin əldə olunmasına da geniş yol açır. Azərbaycan şirkətləri bu sahələrə də investisiya yatıra bilərlər. Eləcə də Qırğızıstan energetika sahəsində böyük potensiala malikdir və Azərbaycan şirkətləri bərpaolunan enerji sahəsində işləməkdə maraqlıdır.

O fakt da mütləq vurğulanmalıdır ki, Özbəkistan, Qazaxıstan, Tacikistan və Qırğızıstan prezidentləri işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda səfərlərdə olublar. Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi tikilib. Füzulidə həmçinin özbək xalqı adından hədiyyə olaraq 960 şagird yerlik məktəb inşa edilib. Qırğızıstanın vəsaiti hesabına isə Ağdamda orta məktəb binası tikilir.

Bütün bunlar dostluq və qardaşlıqla yanaşı, iqtisadi əlaqələrimizin də möhkəm olduğunu və getdikcə inkişaf etdiyini göstərən əyani misallardır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Birinci yarımildə Mərkəzi Bank müxtəlif müddətli 59 not hərracı keçirib

**Azərbaycan Mərkəzi Bankı (AMB) yarımillik ərzində müxtəlif müddətli 59 not hərracı keçirib.**



AZƏRTAC Azərbaycan Mərkəzi Bankının yanvar-iyun ayları üzrə "Pul Siyasəti İcmalı"na istinadla xəbər verir ki, notların yerləşdirilməsi üzrə hərraclarda ümumən tələbin təklifi üstələməsi müşahidə olunub. Cari il iyun ayının sonuna notlar vasitəsilə sterilizasiya olunmuş vəsaitin toplam qalığı 948,4 milyon manat təşkil edib ki, bu da 2023-cü ilin sonu ilə müqayisədə 28 faiz azdır.

Son hərraclarda formalaşan gəlirlilik 28 günlük notlar üzrə 6,98 faiz, 84 günlük notlar üzrə 7,2 faiz, 168 günlük notlar üzrə 7,4 faiz, 252 günlük notlar üzrə isə 7,52 faiz olub. Mərkəzi Bank hesabat dövrü ərzində likvidliyin idarə olunması məqsədilə müxtəlif müddətli monetar əməliyyatlarını davam etdirib.

Banklar tərəfindən alətlər arasında Mərkəzi Bankın sterilizasiya alətlərinə, xüsusən də sterilizasiyayönümlü daimi imkanlar alətinə tələbat daha yüksək olub. Ümumən yanvar-iyun aylarında 1 günlük depozit daimi imkan əməliyyatlarının orta günlük həcmi 770 milyon manat olub. 2024-cü ilin I rübü ilə müqayisədə II rüb ərzində bu alətə tələbat aşağı olub. Hər əməliyyat günü 1 günlük depozit əməliyyatlarında ortalama 16 bank iştirak edib.

Bununla yanaşı, dövr ərzində açıq bazar əməliyyatları qismində sterilizasiya məqsədilə 28 günlük (1 ay), 84 günlük (3 ay), 168 günlük (6 ay) və 252 günlük (9 ay) notların yerləşdirilməsi üzrə müntəzəm hərraclar davam etdirilib.

## "Azərbaycan Sənaye Korporasiyası" İT sistemlərini qismən "Hökumət buludu"na köçürüb




**"Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 3 iyun tarixli fərmanının icrası davam etdirilir.**

"AzInTelecom" MMC-dən AZƏRTAC-a bildirilib ki, fərmanın icrası çərçivəsində informasiya sistemləri və ehtiyatlarını "Hökumət buludu"na köçürən növbəti dövlət qurumu "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti ("ASK" ASC) olub. ASC öz informasiya sistemləri və ehtiyatlarını Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (RİNN) tabeliyindəki "AzInTelecom" MMC-yə məxsus Bakı Data Mərkəzinə qismən yerləşdirib. Azərbaycan Sənaye Korporasiyası "AzInTelecom"un təqdim etdiyi "Virtual server - IaaS" (İnfrastructure-as-a-Service) və "Rezervlənmə - BaaS" (Backup-as-a-Service) bulud xidmətlərini əldə edib. ASK həmçinin "AzInTelecom" tərəfindən lisenziyalı "Microsoft" məhsulları ilə təmin olunub. Sənaye Korporasiyası İT sistemlərini "Hökumət buludu"na yerləşdirməklə kritik sistemlərin yüksək əlçatanlığını təmin edib.

Məlumat üçün bildirək ki, "ASK" ASC-nin informasiya sistemləri 2019-cu ildən etibarən "AzInTelecom" MMC-yə məxsus Data Mərkəzinə yerləşdirilib. Qeyd edək ki, RİNN tərəfindən həyata keçirilən "Hökumət buludu" layihəsinin icraçısı nazirliyin tabeliyindəki "AzInTelecom" MMC-dir. Layihə çərçivəsində dövlət qurumlarının İT sistemlərinin "AzInTelecom"a məxsus Bakı və Yevlax Data mərkəzlərinə tam və ya qismən miqrasiyası həyata keçirilir. Dövlət qurumlarının "Hökumət buludu"na miqrasiyası ilə cari İT xərcləri azalır və informasiya sistemlərinin məhsuldarlığı artır. Beləliklə, informasiya sistemlərinin təhlükəsizliyinin daha da təkmilləşdirilməsinə, sabit və dayanıqlı İT infrastrukturuna, operativ koordinasiya ilə yüksəkkeyfiyyətli servis təminatı və 24/7 monitorinq xidmətinə nail olunur.

## Daha 3 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib

**"Startap" şəhadətnaməsinin verilməsi üzrə Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) yaradılmış Ekspertlər Şurasının növbəti iclası keçirilib.**



KOBİA-dan AZƏRTAC-a verilən məlumata görə, iclasda KOB subyektlərindən daxil olmuş 6 müraciətə baxılıb və onlardan 3-nə "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul edilib. Bunlar "Cibpay" MMC-nin çoxfunksiyalı onlayn ödəniş platforması, "Optima Business Solutions" MMC-nin elektron sənədlərin idarəedilməsi və imzalanması üçün onlayn platforması və "İxtisasSeç" MMC-nin təhsil müəssisələrinə qəbul prosesini asanlaşdıran platformasıdır. Bununla da "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 164-ə çatıb.

"Startap" şəhadətnaməsi KOB subyektlərini bu sənədi aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir.

## Azərbaycanda ekologiya sahəsi üzrə yeni dövlət standartları qəbul edilib

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən beynəlxalq standartlar əsasında AZS ISO 14065:2024 "Ətraf mühitlə bağlı məlumatları validasiya və verifikasiya edən orqanlar üçün ümumi prinsiplər və tələblər" və AZS ISO 14066:2024 "Ətraf mühitlə bağlı məlumatlar - Ətraf mühitlə bağlı məlumatların validasiya və verifikasiyasını edən komandaların səriştəliliyinə dair tələblər" yeni dövlət standartları qəbul edilib.**




Azərbaycan Standartlaşdırma İnstitutundan AZƏRTAC-a bildirilib ki, AZSTAND ilə Almaniyanın Metrologiya İnstitutunun ("Physikalisch-Technische Bundesanstalt" - PTB) "Keyfiyyət infrastrukturu üçün yaşıl transformasiya" adlı birgə layihəsi çərçivəsində işlənib hazırlanan dövlət standartlarının tətbiq edilməsində əsas məqsəd validasiya və verifikasiya komandalarının, eləcə də müstəqil rəy verənlərin səriştəliliyi ilə bağlı tələbləri və ətraf mühitlə bağlı məlumatlar haqqında bəyanatların validasiya və verifikasiyasını həyata keçirən orqanlar üçün prinsipləri və tələbləri müəyyənləşdirməkdir.

Sözügedən dövlət standartları "Ekologiya" standartlaşdırma üzrə Texniki Komitə (AZSTAND/TK 09) tərəfindən müzakirəyə çıxarılıb və institut tərəfindən qəbul edilərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

## Nağdsız valyuta bazarında aparılan əməliyyatların 81 faizi dollarda olub

**Cari ilin 6 ayında nağdsız valyuta bazarında aparılmış əməliyyatların həcmi 17,8 milyard dollar ekvivalentində olub.**

AZƏRTAC Azərbaycan Mərkəzi Bankının yanvar-iyun ayları üzrə "Pul Siyasəti İcmalı"na istinadla xəbər verir ki, nağdsız valyuta əməliyyatlarının 81 faizi dollarda, 19 faizi isə digər valyutalarda aparılıb. Valyuta əməliyyatlarının 28 faizi banklararası valyuta bazarında (BVB), 72 faizi isə bankdaxili valyuta bazarında (BDVB) həyata keçirilib. Hesabat dövründə BVB-də əməliyyatların həcmi 4,9 milyard dollar (ARDNF-nin və Mərkəzi Bankın əməliyyatları daxil olmaqla) ekvivalentində olub. Bu seqmentdə əməliyyatların 98 faizi dollarda aparılıb. BVB-də valyuta əməliyyatları üzrə dövriyyə əsasən "Blumberq" platformasında aparılan əməliyyatlar hesabına formalaşıb.

BDVB-də valyuta əməliyyatlarının həcmi 12,9 milyard dollar ekvivalentində olub ki, bunun da 74 faizini dollar ilə aparılan əməliyyatlar təşkil edib. BDVB-də valyuta əməliyyatlarının 92 faizi hüquqi şəxslərlə aparılan valyuta əməliyyatlarının payına düşüb. Banklar tərəfindən nağd xarici valyutanın alqı-satqısı üzrə aparılmış əməliyyatların həcmi 2,4 milyard dollar ekvivalentində olub. Bunun 87,5 faizini dollar ilə aparılmış əməliyyatlar təşkil edib.

Altı ayda Mərkəzi Bankda ARDNF-nin valyuta satışlarının həyata keçirilməsi üzrə 44 hərrac keçirilib.

## Muxtar respublikada daşınmaz dövlət əmlakının icarəsi üzrə daxilolmalar 48 faizdən çox artıb

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin 7 ayı ərzində dövlət əmlakının icarəyə verilməsi sahəsində işlər davam etdirilib.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, cari ilin yanvar-iyul ayları ərzində, ümumilikdə, 72 yeni icarə müqaviləsi bağlanılıb. Bunun 38-i qeyri-yaşayış sahələri, 34-ü isə torpaq sahələri üzrə olub.

Daşınmaz dövlət əmlakının icarəsindən bu ilin 7 ayında dövlət büdcəsinə 207,8 min manat vəsaitin ödənilməsi təmin edilib. İcarədən daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 48,4 faiz artıb.





**“Böyük qayıdış”**
**proqramı sürətlə icra olunur**





# 2036 ailə doğma yurduna qovuşub

## Şuşa, Füzuli, Zəngilan, Tərtər, Laçın və Xocalıdan sonra gələn ay Cəbrayıla da köç karvanı yollanacaq





**Cəmi dördillik qısa zaman ərzində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən nəhəng tikinti-quruculuq işlərinin miqyası onu deməyə əsas verir ki, milli çağırışlarımızdan olan Böyük qayıdış əzm və qətiyyətlə gerçəkləşdirilir.**

Azərbaycan dövlətinin azad edilən ərazilərdə gördüyü kompleks işlərin mühüm nəticəsidir ki, 30 il ərzində düşmən tapdağında qalan, darmadağın edilən səkkiz şəhər və kəndimizdə artıq həyat yenidən qaynamağa başlayıb. Şuşa, Laçın, Füzuli, Xocalı şəhərlərinin, eləcə də Tərtərin Talış, Zəngilanın Ağalı, Laçının Zabux və Sus kəndlərinin sakinləri qayıdış köçləri ilə doğma yurdlarına dönərək isti od-ocaqlarına qovuşublar.



### 34 min 500 ailə yurduna dönəcək

2026-cı il, Böyük qayıdışın birinci mərhələsi bitənə qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin - 34 min 500 ailənin doğma yurdlarında daimi məskunlaşması təmin ediləcək.

Buna görədir ki, həmin ərazilərdə dünyada misli bərabərinə rastlanmayan şəkildə bərpa və quruculuq işləri aparılır, Böyük qayıdışa mühüm hazırlıq işləri görülür.

O yerlərə səfər edən vətəndaşlarımız da, əcnəbi qonaqlar da azad torpaqlarımızda gerçəkləşdirilən işləri böyük heyrətlə seyr edirlər. Onlar nəhəng körpülərin, tunellərin salınmasından, minlərlə kilometr uzunluqda yolların tikintisindən, beynəlxalq hava limanlarının inşasından, müasir binaların ucaldılmasından tutmuş tarixi, dini, mədəni abidələrimizin müvəffəqiyyətlə bərpasına qədər görülən hərtərəfli işlərin Böyük qayıdışı günbəgün sürətləndirdiyinə şahidlik edirlər. Cənubi Qafqazda ilk dəfə məhz Azərbaycanda, özü də Qarabağ və Şərqi Zəngəzur ərazisində "ağıllı kənd" və "ağıllı şəhər"lərin qurulmasının özü isə bir başqa qürurverici məqamdır.

### 8 minə yaxın insanın qayıdış sevinci

2022-ci il iyulun 19-da Zəngilanın yenidən qurulmuş "ağıllı kənd"i - Ağalının sakinlərinin qayıdışı ilə start verilən Böyük qayıdış sürətlə davam edir. Ötən müddətdə 2023-cü ilin mart ayında Tərtərin Talış kəndinə, may ayında Laçın şəhərinə, avqust ayında Füzuli şəhərinə və Laçın rayonunun yenidən salınan Zabux kəndinə köç həyata keçirilib. Ötən il ərzində fərqli tarixlərdə bu ərazilərə xeyli köç həyata keçirilib. 2024-cü ildə də Qarabağ və Şərqi Zəngəzura qayıdış davam edir. Füzuli, Laçın, Şuşa, Xocalı şəhərlərinə, Laçının Zabux, Sus kəndlərinə 33 köçlə 846 ailə - 3196 nəfər dönüb.

Ümumilikdə, Böyük qayıdış prosesində 2036 ailə - 7901 nəfər dədə-baba yurduna qayıdıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 552 ailə (2031 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 147 ailə (570 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

### Xoşbəxtlik elə budur

Gələn ay isə Cəbrayıla köç olacağı gözlənilir. Eyni zamanda bu ilin sonlarında Kəlbəcərə və Xankəndiyə də qayıdış planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzurda gecə-gündüz aparılan böyük quruculuq işləri sakinlərinə qovuşan yurdlarımızın siyahısına çox tezliklə digər şəhərlərimizin, qəsəbələrimizin, kəndlərimizin də qoşulacağını deməyə əsas verir.

Bütün bunlar qısa vaxtda gözlərimizin qarşısında gerçəyə çevrilən möcüzələrdir.

Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzuru cənnətməkana çevirir, ruhu belə öldürülmüş şəhər və kəndlərimizi yenidən dirçəldir. Onilliklər boyu vətəndə qəribçilik çəkən insanlarımız sevinc göz yaşları içərisində yurdlarına qayıdır, nəhayət ki, dədə-baba torpaqlarımızdan doğma hənir gəlir. Və bütün bunlar həm də bütövlükdə xalqımız üçün xoşbəxtliyin özü deməkdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Laçında əhalinin növbəti tibbi müayinələri təşkil edilib

Səhiyyə Nazirliyi işğaldan azad olunan ərazilərə "Böyük qayıdış" proqramı çərçivəsində vətəndaşlar arasında müxtəlif tibbi müayinələri, eyni zamanda sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyaların keçirilməsini davam etdirir. Növbəti belə tədbir avqustun 9-da baş tutub.



AZƏRTAC xəbər verir ki, nazirliyin Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun tibb heyəti tərəfindən Laçın şəhərində sakinlərin müayinələri aparılıb.

Tədbirin əsas məqsədi Laçın rayonunda yaşayan vətəndaşların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi və ehtiyac olduqda müalicə və reabilitasiya tədbirlərinin həyata keçirilməsidir. Eyni zamanda zədələrin, qırıq və çıxıqların diaqnostikası və aşkarlanması, travma və zədələr nəticəsində yaranan problemlərin aradan qaldırılması üçün dərhal tibbi müdaxilə və müalicə tədbirlərinin təmin edilməsidir. Bundan əlavə, posttravmatik reabilitasiya proqramlarının tətbiqi ilə vətəndaşların funksional imkanlarının bərpa olunması və həyat keyfiyyətinin artırılması, əhalinin travmatoloji zədələrdən qorunması üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və gələcəkdə belə problemlərin qarşısının alınması məqsədi daşıyır.

Müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub. Bundan əlavə, onurğa, sinir, dayaq-hərəkət sistemi, bütün növ travmatoloji və ortopedik xəstəliklərin diaqnostikası aparılıb.

Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun həkim və fizioterapevtləri tədbir iştirakçılarına sağlamlıqlarının tez və effektiv şəkildə bərpasına nail olmaq üçün öz tövsiyələrini veriblər.

Aksiya zamanı 150-dən artıq vətəndaş müayinələrdən keçirilib.

# Azad olmuş ərazilərdə yırtıcı və zəhərli heyvanlardan qorunmaqla bağlı maarifləndirmə işləri aparılır

**"Bioloji Müxtəliflik Mərkəzi" İctimai Birliyi "Azad olmuş ərazilərdə yırtıcı və zəhərli heyvanlardan qorunma" layihəsinin icrasını davam etdirir.**

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyindən AZƏRTAC-a bildirilib ki, layihənin məqsədi işğaldan azad edilmiş ərazilərdə doğma yurdlarına qayıtmış yerli sakinləri, quruculuq işlərində çalışan insanları ərazinin heyvanat aləmi, o cümlədən yırtıcı və zəhərli heyvan növləri barədə məlumatlandırmaq və bu heyvanlardan qorunma tədbirləri ilə bağlı təlimatlandırmaqdır.

Bununla bağlı iyulun 27-də və 28-də Laçında 100-dək yerli sakin və yol-tikinti işçiləri ilə görüşlər keçirilib, onlara yırtıcı məməlilərə və quşlara, zəhərli ilanlara, əqrəb və həşəratlara dair bukletlər paylanıb, iştirakçıların sualları cavablandırılıb.

Xatırladaq ki, analoji görüşlər bundan əvvəl Füzulidə də keçirilib.

Qeyd edək ki, layihənin donoru Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyidir.

# Füzuli sakinləri tank əleyhinə mina aşkar ediblər

**"Böyük qayıdış" proqramı çərçivəsində bu il Füzuli şəhərinə köçürülmüş Cəfərovlar ailəsinin üzvləri yaxın qohumları ilə birlikdə səyahətə çıxdıqları Xocavənd rayonunun Azıx kəndi yaxınlığında avtomobil yolunun kənarında tank əleyhinə mina aşkar edib və bu barədə dərhal müvafiq qurumlara məlumat veriblər. Qısa müddətdə hadisə yerinə gələn ANAMA əməkdaşları tank əleyhinə 2 ədəd minanı zərərsizləşdiriblər.**




Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məhz mina təhlükəsizliyi ilə bağlı aparılan maarifləndirmə tədbirləri Cəfərovlar ailəsinin üzvlərinə mümkün faciənin qarşısını almaq imkanı yaradıb. Belə ki, Azərbaycan Respublikası Prezidentinin göstərişlərinə əsasən, işğaldan azad olunmuş ərazilərə geri qayıdan əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə keçirilən çoxsaylı tədbirlər çərçivəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) birgə təşkilatçılığı və əməkdaşlığı, həmçinin Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Füzuli şəhərinə köçürülən məcburi köçkün ailələri mina təhlükəsizliyi ilə bağlı maarifləndirici təlimlərə cəlb ediliblər.

Bu təlimlərdə iştirakçılara minaların növləri, formaları, yerləşdirilmələri, eləcə də qarşılaşdıqları hallarda necə davranmalı olmaları və təhlükəsizlik tədbirləri barədə lazımi məlumatlar açıqlanıb. Təlimlərin sonunda iştirakçılara qeyd olunanları özündə əks etdirən məlumatlandırıcı broşürlər paylanıb.

Cəfərovlar ailəsinin üzvü Xuraman xanım üzləşdikləri təhlükənin necə aradan qaldırıldığı barədə danışarkən deyib ki, torpaq qatı altında üzəri açılmış iki ədəd yad əşya gördükdə onların mina olduğunu dərhal anlayıb, bu sahədə məlumatlı olduqları üçün həyəcan keçirməyib və təlimlər zamanı öyrəndikləri təlimata uyğun davranıblar. Bu isə böyük bir təhlükənin baş verməsinin qarşısını almağa imkan yaradıb.

Xatırladaq ki, Füzuli şəhərində bu ilin iyul-avqust ayları ərzində mina təhlükəsi ilə bağlı maarifləndirmə tədbirlərinə 1100-dən çox sakin cəlb olunub. Ümumilikdə isə müvafiq təlimlər 20 mindən çox məcburi köçkünü əhatə edib.

Qeyd edək ki, məcburi köçkünlərin sıx məskunlaşdıqları ərazilərdə təlimlərin silsilə şəklində davam etdirilməsi nəzərdə tutulur.

# Ağdam Sənaye Parkına investisiya qoyuluşu artır

**İşğaldan azad olunmuş ərazilərdə təmir-bərpa-quruculuq işləri böyük sürətlə davam etdirilir. Qarabağ və Şərqi Zəngəzurun müxtəlif ərazilərində möhtəşəm yaşayış kompleksləri salınır, yeni infrastruktur yaradılır. Həmin prosesin məntiqi davamı kimi ayrı-ayrı şəhər, rayon və kəndlərə mütəmadi şəkildə köç karvanları yola salınır, keçmiş məcburi köçkünlər doğma yurd-yuvalarında 30 illik fasilədən sonra yeni həyata başlayırlar.**







Bu barədə isə bütün hüquqi prosedurlar, tövsiyə və göstərişlər Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda öz əksini tapmışdır. Şübhəsiz ki, əsl sahiblərinə qovuşan məkanlarda yenidənqurma və məskunlaşma paralel olaraq iş yerlərinin açılmasını da zəruri edir.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkında hazırda ümumi investisiyalarının həcmi 220 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Rezidentlər tərəfindən sənaye parkına 40 milyon manatdan artıq investisiya qoyulub, 300-dək daimi iş yeri yaradılıb. Hazırkı layihələrlə sənaye parkında ümumilikdə iki mindən çox iş yerinin yaradılması nəzərdə tutulur.

Ağdam Sənaye Parkının təməli dövlətimizin başçısı tərəfindən 2021-ci il mayın 28-də qoyulub. Ərazisində sosial və texniki zonalar, TIR parkı və tikinti materiallarının satışı bazasının yaradılması bölgənin iqtisadi inkişafını sürətləndirmək baxımından mühüm önəm daşıyır. Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, həmçinin soyuducu kameraların yaradılması isə regionun aqrar sektorunun dirçəldilməsinə də əsaslı təsir göstərəcək.

Ağdam Sənaye Parkından daha bir neçə şad xəbər var. Azərbaycanda ilk dəfə Ağdamda elektromobillər üçün şarj cihazları, eləcə də Türkiyənin "Karaca" markalı məişət qabları, sucuq və digər məhsulların istehsalına hazırlıq hamımızı qürurlandırdı. Xəbərə görə, parkın rezidenti "Eel Electric" MMC-nin elektrik paylayıcı avadanlıqları və elektrik yuvaları müəssisəsində görülən işlərin 85 faizi artıq yekunlaşıb. Türkiyə və Avropanın qabaqcıl ölkələrindən avadanlıqlar gətirilib, yaxın vaxtlarda onların quraşdırılmasına başlanılacaq. Müəssisədə 35-10 kV daxili və xarici tip paylayıcı qurğular, 0,4 kV güc və idarəetmə panelləri, kondensator qurğuları, müxtəlif güclərdə transformator məntəqələrinin istehsalı həyata keçiriləcək. Şirkət tərəfindən həmçinin ölkəmizdə ilk dəfə elektrikli avtomobillər üçün şarj cihazlarının istehsalı da nəzərdə tutulur.

Bu arada məlum olub ki, Ağdam Sənaye Parkında Türkiyə kapitallı "Asilsoy" MMC-yə rezident statusu verilib, bununla da parkın rezidentlərinin sayı 27-yə çatıb. İqtisadi Zonaların İnkişafı Agentliyi bildirir ki, müəssisədə tava və qazan istehsalı həyata keçiriləcək. İnvestisiya dəyəri 10 milyon manat olan müəssisədə 100 nəfər işlə təmin ediləcək. İstehsal olunan məhsulların daxili bazara satılması ilə yanaşı, ixracı da nəzərdə tutulur. Xatırladaq ki, "Asilsoy" qardaş ölkədə metal mətbəx əşyalarının istehsalı sahəsində aparıcı şirkətlərdən biridir. Məhsulları müxtəlif sifarişçi marka (Karaca, Schafer) adları ilə 15-dən çox ölkəyə ixrac edilir.

"Qarabağ Aqro 44" MMC də Ağdam Sənaye Parkının rezidentləri sırasına daxil olub. Müəssisədə sucuq istehsalı həyata keçiriləcək. İnvestisiya dəyəri 1,4 milyon manat olan müəssisədə 20 nəfər işlə təmin ediləcək. Qeyd edək ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dəyəri 51 milyon manat olan iplik, 20 milyon manat olan parça, 17 milyon manat olan geyim istehsalı müəssisələrinin qurulması təklif edilir. "BAFCO İnvest" MMC tərəfindən Ağdam Sənaye Parkında ayaqqabı fabrikinin tikintisi yekunlaşıb, burada Almaniyadan gətirilmiş avadanlıqlar quraşdırılıb. Müəssisədə test nümunəsində məhsullar istehsal edilir. Yaxın vaxtlarda kütləvi istehsala başlanması nəzərdə tutulur. 2,5 hektar ərazidə yerləşən müəssisə Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikinti və digər sahələrdə istifadə üçün nəzərdə tutulan dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı üzrə ixtisaslaşıb. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisədə 120 iş yeri yaradılacaq. Müəssisədə istehsal olunacaq ayaqqabılar payız-qış, yay-yaz mövsümlərinə, o cümlədən təhlükəsizlik xüsusiyyətlərinə müvafiq olacaq fərqli modellərə bölünür. Ayaqqabı növləri ISO 20345 standartının tələblərinə uyğun olaraq S1, S1P, S2, S3 təhlükəsizlik siniflərinə aiddir.



"BAFCO İnvest"in istehsal etdiyi poliuretan çəkmələr su, yağlar və müxtəlif kimyəvi maddələrə davamlıdır. Bu səbəbdən kimya sənayesində və digər aqressiv mühitlərdə istifadə üçün ideal seçimdir. Çəkmələrin elastik və düzgün anatomik forması, yüngül çəkisi və aşınmaya davamlılığı işdə qoruyucu xüsusiyyətlərlə yanaşı, yüksək komfortun təmin olunması deməkdir. Almaniyanın tanınmış "Desma" markasının son nəsil avadanlıqları ilə təchiz olunan fabrikin illik istehsal gücü 510 min cüt ayaqqabı təşkil edir. "BAFCO İnvest"in təklif etdiyi məhsullar müxtəlif sahələrdə işçilərin maksimum təhlükəsizliyini və komfortunu təmin etmək üçün ideal seçimdir. "Made in Azerbaijan" adı altında istehsal edilən ayaqqabıların daxili bazarla yanaşı, xarici ölkələrə satışı da nəzərdə tutulub.

"Mister Decor" MMC 2022-ci ilin oktyabrında rezident statusu alıb. İnvestisiya həcmi 7 milyon manat olan fabrik Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk müəssisədir. İllik gücü 2,1 milyon ədəd rulon olan divar kağızını istehsal edən müəssisədə 76 nəfərin işlə təmin edilməsi nəzərdə tutulur.

"Metkons" MMC havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatların istehsalı üzrə ixtisaslaşıb. Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyalarının tətbiq olunduğu müəssisənin ümumi investisiya dəyəri 1,9 milyon manatdır və 45 nəfər daimi işlə təmin ediləcək. Zavodda istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. "Metkons" MMC sənaye parklarında tətbiq edilmiş idxal ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 100 min manatdan çox vəsaitə qənaət edib.

Ağdam Sənaye Parkında həmçinin "Rail Trans Service" MMC-nin avtomatlaşdırma və telemexanika sistemlərinin, "Prof-Dam" MMC-nin dam örtüklərinin, "Tabaterra" MMC-nin tütün məmulatlarının, "Agah Group" MMC-nin metal profil və anbar stellajlarının istehsalı və digər müəssisələrin tikinti-quraşdırma işləri görülür. Həmin müəssisələrin bir qisminin bu il fəaliyyətə başlaması planlaşdırılır.

Qeyd edək ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyətə görə, müəssisələr 10 il müddətinə mənfəət, əmlak, torpaq, idxal olunan avadanlıqlara görə ƏDV və gömrük rüsumlarından azaddırlar. İstehsal fəaliyyəti ilə məşğul olan sahibkarların ödədikləri kommunal xidmətlərin tariflərinə uyğun olaraq, vəsaitin 20 faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımının ödənilməsi nəzərdə tutulur.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*



**ŞUŞA** *İslam dünyasının mədəniyyət paytaxtıdır*



● Qarabağ Azərbaycandır!



# Bənzərsizliyi ilə görənləri heyran edən şəhər

**Dünyada elə gözəl şəhərlər, elə bənzərsiz diyarlar var ki, onların haqqında nə qədər yazılsa da, nə qədər deyilsə də, sanki yenə də azdır. Deyilənlər, yazılanlar onun gözəlliyini hələ tam əhatə edə bilmir. Sanki bu şəhərlər, bu diyarlar sözün təsvir etdiyi qüdrətdən də üstündür. Qədim Şuşa da dünyanın belə bənzərsiz şəhərlərindən biridir. Şuşa haqqında, bu diyarda doğulmuş istedadlı insanlar haqqında çox yazılsa da, çox deyilsə də, hələ onun gözəlliyinin yazılmamış, açılmamış səhifələri qalmaqdadır. Şuşanı insanlara sevdirən də elə onun bənzərsizliyi, qəhrəmanlıqlarla dolu olan tarixi keçmişi, əzəmətidir.**

Əsrlər ötüb keçsə də, Şuşaya olan sevgi, Şuşaya olan məhəbbət bitib-tükənmir. Elə bu sevginin, bu istəyin nəticəsidir ki, Şuşanı çox haqlı olaraq Qarabağın incisi, milli mədəniyyətimizin, musiqimizin beşiyi adlandırırlar. Qeyri-adi memarlıq üslubu ilə diqqəti cəlb edən, Orta əsr şəhərsalma sənətinin əvəzsiz abidəsi olan qala şəhərimiz xalqımız üçün bənzərsiz sənət incisidir. Elə bir inci ki, onunla xalqımız fəxr edir.

Böyük fateh Nadir şah Əfşarın ölümündən sonra Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq - Gəncə və Qarabağ xanlıqları yarandı. Qarabağ xanlığının bünövrəsinin qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın adı ilə bağlıdır. Pənahəli xan 1748-ci ildə Qarabağ xanlığının əsasını qoymuşdur. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır.

Bir çox tarixi mənbədə məşhur səyyahların, tədqiqatçıların, rəssamların Şuşanın gözəlliyi haqqında dedikləri sözlər, fikirlər bu gün də bizdə iftixar hissi doğurur. Məşhur rəssam V.Vereşşagin Şuşanı görəndə heyrətə gələrək yazmışdı: "Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir".

"Qafqaz" qəzetinin icmalçısı 1868-ci il 24 may tarixli şərhində göstərirdi: "Şuşa gündən-günə yox, saatdan-saata böyüyür, onun ticarəti inkişaf edir, şəhər əhalisi varlanır. Buraya hər tərəfdən dəstə-dəstə adam axışıb gəlməkdədir. Beləliklə, şəhərdə 25 min əhali yaşadığını cəsarətlə söyləmək olar".

1903-cü ildə Tiflisdə nəşr olunmuş "Vestnik Kavkaza" jurnalının 43-cü səhifəsində yazılmışdı ki, "Şuşanın görünüşü Orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipəkbarama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar".

Haqqında yazılanlardan da göründüyü kimi, Şuşa daim əsrarəngizliyi ilə gələnləri və görənləri heyran edib. Deyilən xoş sözlər isə bu heyranlıqdan yaranıb. Amma min təəssüflər olsun ki, 1992-ci il mayın 8-də əsrlər boyu gözəlliyi haqqında dəyərli sözlər deyilən, yazılan Şuşa şəhəri ermənilər tərəfindən işğal edildi. Xalqımızı hiddətləndirən, qəzəbləndirən bu işğal Azərbaycanın taleyinə və tarixinə qara hərflərlə yazıldı. Gözəlliyi ilə dünyaya meydan oxuyan şəhərdən Azərbaycan xalqının izlərini silmək üçün erməni işğalçılarının əlinə əlverişli fürsət düşdü. Qəsbkarlar çirkin niyyətlərinə çatmaq üçün insanlığa ləkə olan cinayətlərə əl atdılar, mədəniyyət abidələrini, inanc yerlərini darmadağın etdilər.

İşğal olunmuş ərazilərimizdə erməni işğalçılarının vəhşiliyi, abidələrimizin dağıdılması və qəsdən korlanması, eləcə də xatirə muzeylərinin qarət edilməsi "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasına zidd olsa da, bütövlükdə dünya birliyi, başda BMT olmaqla digər beynəlxalq təşkilatlar Qarabağda baş verən erməni vandallığına göz yumdu, işğala, işğalçıya qarşı etiraz ifadə edən heç bir bəyanat verilmədi.

Şuşanın işğalı 30 ilə yaxın davam etdi. Şükürlər olsun ki, bu gözəl diyarın işğaldan azad olunduğu günü gördük. 8 noyabr 2020-ci il Azərbaycan xalqının və dövlətinin tarixinə qızıl hərflərlə yazıldı. Həmin gün Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Şuşa şəhərini erməni işğalçılarından azad etdi.

Prezident İlham Əliyev illərdən bəri həsrətlə gözlənən bu xoş müjdəni Azərbaycan xalqına 8 noyabr 2020-ci ildə Şəhidlər xiyabanından verdi. Dövlət başçımız xalqa müraciətində demişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Bu gün Şuşa həyatının ən gözəl günlərini yaşayır. Dövlət başçısının rəhbərliyi altında hazırda bu qədim diyarda böyük quruculuq işləri aparılır, ermənilər tərəfindən dağıdılmış mədəniyyət abidələrimiz bərpa olunur, yeni yaşayış binaları tikilir. Günlər keçdikcə Şuşa abadlaşır, böyüyür, gözəlləşir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Qəhrəmanlıq örnəyi

# Şuşa döyüşlərində iştirakından fəxr edən qazi

**Azərbaycanın əsrarəngiz guşəsi Qarabağ düşmən işğalında qaldığı 30 il ərzində xalqımız bu ərazilərin xiffətini çəkmiş, həsrətində qalmışdı. Amma qarabağlılar, şuşalılar üçün doğulub böyüdükləri doğma yurd-yuvadan ayrı düşmək daha böyük bir dərd idi.**



Eyvazlılar ailəsinin başçıları Sərdar müəllim və Nəsibə xanım qala şəhərimizdə dünyaya göz açıblar. Şuşanın işğalına qədər orada yaşayıb-çalışıblar. Daim Vətənə sevgi, itirilən əraziləri qaytarmaq zərurəti, vətəndaşlıq mövqeyi mövzusunda söhbətlər aparılan bu ziyalı ailədə iki övlad da dünyaya göz açıb, böyüyüb, tərbiyə alıb. Amma Şuşada yox, Bakıda, məcburi köçkünlük şəraitində... Böyük oğulları Həsən 1994-cü il təvəllüdlüdür, təhsilini başa vurduqdan sonra ailə qurub. Nicat isə 1996-cı ildə doğulub, 2002-2013-cü illərdə Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən 94 saylı tam orta məktəbdə təhsil alıb, 2017-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə fakültəsini bitirib.

Bu yazıda da sizə xalqımızın vətənpərvər oğlu, Şuşanı fəth edənlərdən biri Nicat Eyvazlı haqqında danışacağıq. O, 2017-ci ildə Naxçıvanda həqiqi hərbi xidmətdə olub. 2018-ci ildən ABC Kontakt mağazalar şəbəkəsində mütəxəssis işləyib. Bu elə dövr idi ki, düşmən təxribatları zəminində reallaşan və tariximizdə xüsusi iz qoyan iki əks-hücumun arasında qərar tutmuşdu - qələbə müjdəçisi Aprel savaşı arxada qalıb, daim artan döyüş ruhumuzu təsdiqləyəcək Tovuz savaşı isə hələ irəlidədir. Və 2020-ci ilin iyulu yenə də qaynar cəbhə xəbərləri ilə başlandı. Ermənilərin Tovuz rayonu istiqamətində təxribatçı cəhdləri ordumuzun cavab tədbirləri ilə nəticələndi. Bu ərəfədə Nicat da birbaşa Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu rayon şöbəsinə üz tutdu.

Söhbəti özü davam etdirir: "Bizi qeydiyyata alıb, əlaqə nömrələri götürdülər. O zaman artıq müharibənin qaçılmazlığı barədə söz-söhbət dolaşırdı. Çünki erməni silahlıları təmas xəttində tez-tez terror, təxribat aktları törədirdilər. Mən səbirsizliklə daha ayyarım gözlədim, sentyabrın 2-3-də zəng gəldi, sorğu-sual edib başqa hərbi bilik və bacarıqlarımla maraqlandılar. Ayın 27-28-də ordumuzun qətiyyətli əks-hücumları zəminində Vətən müharibəsinin ilk günlərində isə "doğrudanmı məni aparmayacaqlar" deyə pərt olmuşdum..."

Nəhayət, sentyabrın 30-da Nicatın həyəcanla gözlədiyi məlumat gəlir, ertəsi gün 17 nəfər Şuşa könüllüsü ilə birgə Ağcabədiyə yola düşürlər. Oktyabrın 3-də Füzuli rayonu uğrunda döyüşlərə qatılır, doqquz gün sonra yaralansa da, bunu "yüngül" sayaraq, tibb məntəqəsinə bildirməyi özünə sığışdırmır və meydanı tərk eləmir: "Füzuli şəhəri və 21 kəndin düşməndən təmizlənməsi məqsədilə qanlı savaşa girərək, düşməni "iti qovan kimi" qovduq. Oktyabrın son günlərində Qubadlı rayon mərkəzi, kəndləri, ətraf yüksəklikləri azad edərək rayonun ən uca nöqtəsi olan Süsənlidə mövqe tutduq. Komandirimiz şəhid mayor Elçin Alıyev bizə bildirdi ki, polkovnik Tehran Mənsimovun rəhbərliyi altında xüsusi hazırlıqlı bölmələr komplektləşdirilir və Şuşaya hücum hazırlanır. Sevincimizin həddi-hüdudu yox idi...", - deyə Nicat bildirir.

Qəhrəmanımız ömür boyu böyüklərdən - nənə-babalarından, ata-anasından eşitdiyi, kitablardan, qəzetlərdən oxuduğu, nəsil-nəcabətinin ömür sürdüyü və qovuşa bilmək üçün daim dualar etdiyi arzularının şəhərini görəcəyindən çox sevinirmiş: "Noyabrın 2-də Xocalının Siqnax adlanan hissəsindən yürüşə başladıq. İki gün sonra Daşaltıya çatanda məlum oldu ki, burada xeyli daşnak tör-töküntüsü toplaşıb. Güclü müqavimət göstərsələr də, bu, işimizə yaradı. Çünki məqsəd ermənilərin diqqətini həmin cinaha cəmləyərək, qüvvələrimizin başqa tərəfdən Şuşaya girişinə şərait yaratmaq idi. Polkovnik Mənsimovun komandanlığı ilə qüvvələrimizi yenidən komplektləşdirib Laçın dəhlizinə doğru irəlilədik, İsa bulağı yaxınlığında mühasirəyə düşdük, şəhidlərimiz oldu. Döyüşə-döyüşə mühasirəni yarıb noyabrın 7-də Şuşaya girdik və şəhərin düşməndən təmizlənməsinə başlanıldı. Bu, həyatımın ən xoşbəxt və qürurlu anları idi", - Nicat əlavə edir.

O deyir ki, Xankəndi və Laçın tərəflərdən iriçaplı silahların atəşi susmur, güllə və mərmilər yağış kimi yağırdı. Belə bir gərgin vəziyyətdə, noyabrın 8-də ayağından ağır yaralanır, təcili cərrahi müdaxilə lazım olsa da, nəqliyyat işləmədiyinə görə ilkin tibbi yardımla 29 saat Şuşada gözləmək məcburiyyətində qalır. Sonra hospitala yerləşdirilərək əməliyyat edilir, hazırda da sağlamlığının tam bərpası üçün müalicə alır.

Nicatın anası Nəsibə xanım söhbətə qoşularaq, oğlunun cəbhə həyatı zamanı ailədə böyük narahatlıqlar yaşandığını, xüsusilə heç bir xəbərətər gəlməyən son 10-12 gün ərzindəki nigarançılığı sözlə ifadə etməyin çətinliyini bildirir: "Şuşaya qalxmalarını çox gec eşitdik. Oranın təbiətinə, relyefinə bələd olduğumuzdan, qayadan yıxılacağından, sürüşüb çaya düşəcəyindən qorxurduq, güllə, bomba, mina təhlükəsi tamam yadımızdan çıxmışdı... Ayağını mərminin əməlli-başlı zədələyib sındırdığını da bizdən gizlətmişdi, telefonda dedi ki, botinka vurub, xırda şeydir, keçib gedər..."

Noyabrın 8-də cənab Prezident Şuşanın azadlığı xəbərini verəndə, Eyvazlılar ailəsində sevinc və övladdan xəbərsizlikdən doğan kədər bir-birinə qarışıbmış.

Nicat Sərdar oğlu Eyvazlı Vətən müharibəsindəki şücaətlərinə görə "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltiflənib. Gənc döyüşçü hazırda Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsində çalışır. Belə igidlərimiz min yaşasınlar!

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

● Tarixə nəzər

# "Qarabağnamə"si ilə tarixdə qalan Mirzə Adıgözəl bəy

**Qarabağın tarixini yazan Mirzə Adıgözəl bəy öz həyat tarixçəsi barədə dolğun məlumat verməyib. "Qarabağnamə"sinin son səhifələrində öz tərcümeyi-halından çox qısa bəhs edib, hansı ildə anadan olduğunu belə yazmayıb. Odur ki, Mirzə Adıgözəl bəyin dünyaya gəldiyi ili araşdırıcılar onun tərcümeyi-halında işarə etdiyi faktlara diqqət yetirməklə təxmin ediblər. Onlar Mirzə Adıgözəl bəyin XVIII əsrin səksəninci illərinin əvvəllərində anadan olduğu qənaətinə gəliblər.**



Mirzə Adıgözəl bəy ailəsinin türbələri

Mirzə Adıgözəl bəy Şuşa şəhərində məktəbdə oxuyarkən Ağa Məhəmməd şah öz qoşunları ilə Qarabağa daxil olduğunu, Şuşa qalasını mühasirəyə aldığını, ancaq şəhəri ələ keçirə bilməyərək Gürcüstana tərəf yollandığını, Tiflis şəhərini tutduğunu yazıb. Tarixdən məlumdur ki, Ağa Məhəmməd şah tərəfindən Şuşanın birinci dəfə mühasirəyə alınması 1795-ci ilin yayında baş verib.

Onun doğma şəhərinin - Şuşanın başının üstünü qara buludlar alanda Mirzə Adıgözəl bəyin atası da ailəsi ilə Qarabağı tərk edərək Gürcüstana qaçmaq məcburiyyətində qalıb. Tədqiqatçı V.N.Leviatov "Qarabağnamə" kitabına müqəddiməsində qeyd edib ki, Ağa Məhəmməd şahın basqınından qaçan qaçqınlar yollarda ağır vəziyyətlə üz-üzə gəlirdilər: "Qarabağdan qaçarkən Adıgözəl bəygilin ailəsinin çəkdiyi bütün əziyyətlər başqa qaçqınların da başına gəldi".

Tədqiqatçı onu da qeyd edib ki, 1796-cı ilin yayında Adıgözəl bəy artıq Gürcüstanda idi. 1797-ci ilin yazında Ağa Məhəmməd şah qoşunları ilə yenidən Qarabağa hücum edib. Şuşanı ikinci dəfə müdafiə etmək üçün hərbi qüvvəyə və vəsaitə malik olmayan Qarabağ xanı İbrahim xan Şuşa qalasını tərk edib. Ağa Məhəmməd şahın öz qoşunları ilə heç bir maneəyə rast gəlmədən Şuşanı zəbt etdiyini diqqətə çatdıran Leviatov Mirzə Adıgözəl bəy və ailəsinin həmin vaxtlardakı vəziyyətini belə təsvir edib: "Bütün bu müddət ərzində Adıgözəl bəygilin ailəsi ona tabe olan köçərilərlə Gürcüstanda qalmaqda idilər. Şübhəsiz ki, bütün bu hadisələr Adıgözəl bəyə məlum idi. Yəqin ki, o, bu hadisələrin şahidi və iştirakçısı olmuş, müxtəlif adamlarla görüşmüşdü. Doğma vətəninin talan edilməsi, aclıq, əhali kütlələrinin iztirabı, İran hakimiyyəti tərəfindən törədilən fəlakətlər, yəqin ki, Adıgözəl bəyin şüurunda dərin iz buraxmışdı".

Mirzə Adıgözəl bəy öz tərcümeyi-halında bildirib ki, Gürcüstan Rusiya ilə birləşdikdən sonra nazir Kovalenski XII Georginin diplomatik məktublarını yazan katiblərinə inanmadığı üçün, osmanlı dilini bilən bir adam axtarırdı. Kovalenskiyə Mirzə Adıgözəl bəyi tanıdıblar. Nazir onu gizli məktublar ilə əlaqədar olan işlər üçün öz yanına xidmətə qəbul edib. Tədqiqatçı Leviatovun qənaətincə, Mirzə Adıgözəl bəy bu məxfi vəzifədə, 1799-cu ilin axırlarında və 1800-cü illərdə xidmət edə bilərdi. Sonrakı illəri barədə isə Mirzə Adıgözəl bəy öz tərcümeyi-halında yazıb: "Mən rus komandanlığının rütbəli şəxsləri yanında xidmətdə idim".

Mənbələrdə göstərilir ki, Mirzə Adıgözəl bəy general-mayor Lisaneviçin yanına xidmətə təyin edilib və xeyli müddət bu vəzifədə qalıb: "On birinci ilə qədər onun yanında katiblik etdim. Bu ildə mənə podporuçik rütbəsi verildi. Nəhayət, on altıncı ildə sərdar Yermolovdan izn alıb, Qarabağın keçmiş hakimi general-mayor Mehdiqulu xanın qulluğuna gəldim", - özü tərcümeyi halında bu barədə belə yazıb.

Araşdırmalarda 1816-cı ilin oktyabrında Gürcüstanın əlahiddə korpus komandiri vəzifəsinə təyin olunaraq Tiflisə gələn general A.P.Yermolovun Mirzə Adıgözəl bəyi qarabağlı olduğu üçün Mehdiqulu xanın yanına göndərdiyi bildirilib. Mirzə Adıgözəl bəy tərcümeyi-halında qarabağlı Mehdiqulu xan ona ailəsinin əvvəllər də sahib olduğu torpaqları qaytardığını, yeni malikanələr bağışladığını və onu "İyirmi dörd" mahalına naib təyin etdiyini yazıb. Leviatov qeyd edib ki, "İyirmi dörd" mahalı Qarabağ xanlığının iyirmi iki mahalından biri idi. Mirzə Adıgözəl bəy Mehdiqulu xanın ən yaxın və inanılmış adamlarından biri sayılıb. Mehdiqulu xan xaricə qaçdığı günədək onun yanında olub.

Haqqında yazılanlara görə, 1828-ci ildən sonra o, mahal ərazisində xeyli mülkə sahib idi.

Mirzə Adıgözəl bəyin 1830-1840-cı illərdəki həyat və fəaliyyəti haqqında dəqiq məlumat qalmayıb. Yalnız 1834-cü ilin əvvəllərinə aid tapılmış arxiv sənədlərindən məlum olur ki, o, məhkəmədə şahid sifətilə çıxış edib.

Mirzə Adıgözəl bəy Azərbaycan dilindən savayı fars, rus, gürcü və erməni dillərini bilib. O, Şərq poeziyasını çox sevib. Mirzə Adıgözəl bəy şeiriyyatının vurğunu olduğu Nizami Gəncəvinin 1826-cı ildə Gəncə döyüşü zamanı dağıdılmış sərdabəsini öz vəsaiti hesabına bərpa etdirib.

Özü də şeirlər yazıb. Ancaq tariximizdə daha çox "Qarabağnamə" ilə qalıb. Tədqiqatçıların fikrincə, Mirzə Adıgözəl bəy "Qarabağnamə"ni 1845-ci ildə, təxmin edildiyi üzrə altmış beş yaşında görmə qabiliyyətinin zəiflədiyindən, diktə edərək yazdırıb. Müəllif 1736-cı ildən 1828-ci ilədək Qarabağın siyasi tarixini şərh edib.

Mirzə Adıgözəl bəy 1848-ci il sentyabrın 9-da dünyadan köçüb. Mülkü olan Rəhimlidə (Goranboy rayonunun Rəhimli kəndi) dəfn edilib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● İmarətlər, malikanələr



Xan qızı Natəvanın imarəti "Bazar başı meydanı"nın yaxınlığında hasara alınmış ikimərtəbəli əzəmətli bina idi. Beş iri otaqdan ibarət olan bu imarətin yanında sonralar ikimərtəbəli, altı otaqlı əlavə bina da tikilmişdi. Evin qarşısında bağça, arxa tərəfində böyük bir bağ, həyətində isə su anbarı vardı. Bundan əlavə, Xurşudbanu bəyimin yaşadığı binanın cənub tərəfində həyətdə yerin dərinliyində xüsusi buzxana yerləşirdi. Burada ilin bütün fəsillərində, xüsusilə də isti havalarda buz saxlanılırdı. Buzxanadan şəhər əhli, ilk növbədə xəstə insanlar istifadə edirdilər. Buz lazım olduqda həkim məsləhətindən sonra xəstələrə, eyni zamanda müraciət edənlərin hamısına anbardan pulsuz olaraq verilirdi.

Xan qızı Natəvan rəhbərlik etdiyi "Məclisi-üns" ədəbi dərnəyinin məşğələlərini yay vaxtı bu bağda, qışda isə xüsusi olaraq tikilmiş birmərtəbəli evdə keçirirdi. Binanın sağ tərəfində isə onun qızı Xanbikənin evi idi. 1920-ci ilə qədər bu binada "Nikolayevski" rus-tatar məktəbi, sovet dövründə "Nərimaniyyə" məktəbi, sonralar isə təxminən 50 il Natəvan adına Respublika Uşaq-Vərəm Sanatoriyası yerləşirdi.

❖❖❖

Əbdürrəhim bəyin malikanəsi Köçəri məhəlləsində, XIX əsrə aid yaşayış evi idi. Qarabağın köklü və məşhur bəyi, rus ordusunun mayoru, Şuşanın baməzə adamlarından olan Əbdürrəhim bəy Vəzirovun ikimərtəbəli mülkünün hər mərtəbəsinin sahəsi təxminən 120 kvadratmetr idi.

Birinci mərtəbə bir böyük zaldan və dörd otaqdan, ikinci mərtəbə isə bir dəhlizdən və altı otaqdan ibarət idi. Hər iki mərtəbədə buxarılar və ayaqyolular vardı. Aşağıda isə böyük zirzəmi yerləşirdi.

1920-ci ildə bu bina Malıbəyli qaçqınları üçün sığınacağa çevrilmiş, sovet dövründə burada müxtəlif təşkilatlar yerləşmiş, son zamanlar isə mehmanxana və poliklinika kimi fəaliyyət göstərmişdir.

Ötən əsrin 90-cı illərində ermənilər binanı tamamilə Yer üzündən silmişlər.

XXXIII Paris Yay Olimpiya Oyunları

# Parisə fərəhlə, Bakıya zəfərlə

## "Azərbaycan Olimpiya Evi"ndə daha bir görüş





**XXXIII Yay Olimpiya Oyunları çərçivəsində Parisdə fəaliyyət göstərən "Azərbaycan Olimpiya Evi"ndə idmançılarımızın qələbəsinə həsr olunmuş görüş keçirilib.**

Görüşdə gənclər və idman naziri Fərid Qayıbov, idman nazirinin müavini Mariana Vasileva, Milli Olimpiya Komitəsinin (MOK) Baş katibi Azər Əliyev, Fransadakı səfirimiz Leyla Abdullayeva, Olimpiya və dünya çempionları, beynəlxalq təşkilatların, müxtəlif ölkələrin rəsmi nümayəndələri, "Paris-2024" Olimpiya Oyunlarında ölkəmizi təmsil edən idmançılar və onların məşqçiləri, jurnalistlər iştirak ediblər.

Qonaqlar arasında Parisdə ikiqat Olimpiya çempionu titulunu qazanmış Filippin gimnastı Karlos Yulo da olub və Azərbaycan idmançıları ilə qələbə təəssüratlarını bölüşüb. Görüş iştirakçıları Olimpiya Oyunlarında gümüş və bürünc medal qazanan idmançılarımız Qaşım Maqomedovu və Həsrət Cəfərovu alqışlarla qarşılayıb, onlarla qürur duyduqlarını bildiriblər. Vurğulanıb ki, XXXIII Yay Olimpiya Oyunlarında yarışan gənclərimiz bütün dünyaya Azərbaycan idmançısının iradəsini və mübarizliyini bir daha nümayiş etdirdilər. Tədbir çərçivəsində "Azərbaycan Olimpiya Evi"nin qonaqlarına ölkəmizin Olimpiya tarixi, mədəniyyəti, eləcə də Olimpiya Oyunlarında iştirak edən idmançılarımızdan bəhs edən nəşrlər nümayiş etdirilib və iştirakçılara hədiyyə olunub.

## Pəhləvanımız 3-cü yer uğrunda güləşəcək

**Paris Olimpiadasında güləş yarışları davam edir. Dünən daha iki çəkidə mübarizə aparan sərbəst güləşçilər xalçaya çıxıblar.**



125 kq çəkidə yarışan güləşçimiz Giorgi Meşvildişvili 1/4 finala vəsiqə üçün misirli Diaeldin Abdelmottaleblə qarşılaşıb. Görüş təmsilçimizin qələbəsi ilə başa çatıb-4:0.

Meşvildişvili yarımfinal uğrunda Lxaqvaqerel Munxturla (Monqolustan) güləşdən də qalib ayrılıb (12:2). Pəhləvanımız finala gedən yolda Geno Petriaşvili (Gürcüstan) ilə görüşüb. 30 yaşlı Petriaşvili üçqat dünya, ikiqat Avropa çempionu, Olimpiya Oyunlarının bürünc ("Rio-2016") və gümüş ("Tokio-2020") mükafatçısıdır. Yekunda rəqibinə 0:7 hesabı ilə uduzan güləşçimiz bu gün bürünc medal uğrunda döşəyə çıxacaq.

74 kq çəkidə güləşən Turan Bayramov da mübarizəyə 1/8 finaldan başlayıb. Avropa çempionatlarının üçqat mükafatçısı ilk qarşılaşmada albaniyalı Çermen Valiyevlə görüşüb. Bayramov 3:0 hesabı ilə öndə olsa da, yekunda 3:4 hesabı ilə uduzub. Ardınca Valiyev də məğlub olduğundan idmançımız Olimpiadada çıxışını bitirib.

## Həsrət Cəfərov "bürünc"dən danışdı



"Təəssüratlarım çox yaxşıdır. Olimpiya bürüncünü qazandım". Bunu "Paris-2024"ün bürünc mükafatçısı Həsrət Cəfərov (67 kq) deyib. Yunan-Roma güləşçimiz qazanılan medalı yüksək qiymətləndirib: "Hədəfim qızıl medal idi. Amma Fransadan əliboş dönmürəm. Güləşdə ilk medalı qazandım. Sanki komandamızın başının üstündə qara buludlar var idi. Şükür, açılışı etdik. Ümid edirəm ki, uşaqlar mən qazandığım medalın davamını gətirəcəklər. Daha yaxşı hazırlaşıb gələcəkdə yüksək uğurlar əldə edəcəyəm".

Xatırladaq ki, Həsrət bürünc uğrunda Amantur İsmayılova (Qırğızıstan) qalib gəlib.

## Gimnastlarımız finala yüksəldilər



**Paris Yay Olimpiya Oyunlarında bədii gimnastika üzrə yarışlar davam edir. Dünən qrup hərəkətləri üzrə komandaların təsnifat mərhələsi başa çatıb.**

Zeynəb Hümmətova, Ləman Əlimuradova, Darya Sorokina, Güllü Ağalarzadə və Yelizaveta Luzandan ibarət Azərbaycan millisi 14 iştirakçı arasında 8-ci yeri tutub. Bununla da yığmamız final mərhələsinə vəsiqə qazanıb.

Gimnastlarımız halqalarla 33850, üç lent və iki topla 28150 xal toplayıb. Yığmamız iki hərəkətin cəmində hesabını 62000 xala çatdırıb.

Qeyd edək ki, təsnifat mərhələsinin 8 ən yaxşısı bu gün baş tutacaq final raundunda iştirak edəcək. Həlledici mərhələ Bakı vaxtı ilə saat 16:00-da başlayacaq.

## İsveçli üzgüçü yarışdan imtina etdi

**İsveçli üzgüçü Viktor Yohansson açıq havada 10 kilometr məsafəyə üzmə yarışında iştirakdan imtina edib. O, bunu Sena çayının çirkli olması ilə əlaqələndirib.**



Yohansson bildirib ki, həkimlər ona üzməməyi məsləhət görüb: "İdmançı sağlamlığı hər şeydən önəmlidir. Biz həkim məsləhətlərini öyrəndik və riskləri nəzərə alaraq, yarışda iştirak etməmək qərarına gəldik. İnanmıram ki, Sena çayından kimsə bir qurtum su içmək istəsin".

Qeyd edək ki, Sena çayının çirkli olması üzündən triatlon məşqləri və yarışları bir neçə dəfə təxirə salınıb.

## Gümüş medalçı əlil arabasında aparıldı



**Uzunluğa tullanma üzrə alman idmançı, 2022-ci ilin Olimpiya çempionu Maleyka Mayambo Parisdə keçirilən Olimpiadada yarışdıqdan sonra stadionu köməksiz tərk edə bilməyib.**

"Son bir neçə həftə çətin keçdi. Ağciyərlərimdə çox ciddi problemlər var idi və bu problemdən qurtulmaq asan deyildi. Bu, mənəvi cəhətdən yorucu idi, çünki anlayırsan ki, bədən hər an səndən imtina edə bilər", - deyə Miambo mətbuat konfransında bildirib.

Yarışdan sonra kürəyindəki bayraqla fəxri dövrə vuran idmançı daha sonra məşqçiyə nəfəs ala bilmədiyini deyib. Bundan sonra tibb işçiləri idmançını əlil arabasında aparıblar.

Miambo iki ay əvvəl COVID-19-a yoluxub və tam sağalmayıb, buna görə də o, hələ də astma da daxil olmaqla bəzi problemlərlə üzləşir.

## Dünya rekordçusu ağır xəsarət alıb

**Paris Olimpiadasında mərakeşli Sufyan El-Bakkalinin 3000 metr məsafəyə maneəli qaçışda gözəl qələbəsi əsas rəqibinin dəhşətli yıxılması ilə əlaqədar kölgədə qalıb.**



Belə ki, finişə 200 metr qalmış efiopiyalı Lameha Girma sağ ayağı ilə maneəyə ilişərək yüksək sürətlə arxası üstə yerə çırpılıb. İdmançı huşunu itirib və yerindən tərpənməyib, rəqibləri isə ya ətrafdan qaçıblar, ya da onun üstündən tullanıblar.

Girma maneəli qaçışda dünya rekordçusudur. O, 9 iyun 2023-cü ildə Parisdə Diamond League mərhələsində məsafəni 7:52.11 dəqiqəyə qaçaraq ən yüksək dünya nailiyyətini təmin edib və bu nəticə ilə qətərli Saif Şahinin 19 ildir davam edən dünya rekordunu yeniləyib.

Hazırda efiopiyalı atlet Parisdəki klinikada müalicə alır.

## Olimpiya çempionluğuna görə istirahət günü elan olunub



**Botsvana Prezidenti Mokvetsi Masisi ölkənin Olimpiya Oyunları tarixində ilk qızıl medalının şərəfinə istirahət günü elan edib.**

Botsvanalı sprinter Letsil Teboqo Parisdə keçirilən Oyunlarda 200 metr məsafəyə qaçışda titullu amerikalılar Kenett Bednarek və Noa Laylsı qabaqlayaraq birinci yeri tutub.

Prezident bildirib ki, avqustun 9-u ölkəsinin sakinlərinə idmançılarının uğurunu layiqincə qeyd etmələri üçün istirahət verilib.

Botsvananın ilk Olimpiya qızıl medalını qeydetmə mərasimləri iki gündür başlayıb. Qeyd olunur ki 21 yaşlı Letsil Teboqo 200 metr məsafəyə qaçışda Olimpiya çempionu olan ilk afrikalıdır.

# Laçında itkin düşərək həlak olan hərbçi Firdovsi Abdullayev Gəncədə torpağa tapşırılıb





**Laçın rayonunda 2022-ci il martın 3-də itkin düşərək həlak olan hərbçi Firdovsi Abdullayev Gəncə şəhərində torpağa tapşırılıb.**

AZƏRTAC xəbər verir ki, Goranboy rayonunun Qaradağlı kəndində anadan olmuş Firdovsi Mais oğlu Abdullayevin nəşinin qalıqları Gəncə şəhər Məhsəti qəsəbəsində yaşadığı evə gətirilərək valideynlərinə təhvil verilib.

O, bu gün Gəncə Şəhidlər xiyabanında dəfn olunub.

Dəfn mərasimində Gəncə Şəhər və Goranboy Rayon İcra hakimiyyətlərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri, şəhid ailələri və şəhər sakinləri iştirak ediblər.



Qeyd edək ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarış-araşdırma işləri nəticəsində iyulun 3-də Kəlbəcər rayonunun İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində Azərbaycan Ordusunun iki hərbçisinə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanaraq götürülüb. Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Genetik Araşdırmalar Mərkəzində həyata keçirilmiş ekspertizalar nəticəsində qalıqların 2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək itkin düşmüş Azərbaycan Ordusunun əsgərləri - 23.05.2003-cü il təvəllüdlü Fərid Əjdər oğlu Məmmədova və 09.02.2003-cü il təvəllüdlü Firdovsi Mais oğlu Abdullayevə aid olduğu müəyyən edilib.

Həyata keçirilmiş kompleks istintaq tədbirləri, məhkəmə-tibb və kriminalistik tədqiqatlarla müəyyən edilib ki, həmin əsgərlər 2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun olması səbəbindən istiqaməti itirərək itkin düşüb, uzun müddət soyuq temperaturda qalmaqla donvurma səbəbindən ölüblər.

# Vətən müharibəsi şəhidi Samir Əliyevin məzarı ziyarət olunub

**Avqustun 9-da Vətən müharibəsi şəhidi leytenant Samir Əliheydər oğlu Əliyevin anım günü ilə əlaqədar İkinci Fəxri xiyabanda məzarı ziyarət olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə şəhidin yaxınları, Müdafiə Nazirliyinin idarə və təşkilatlarının əməkdaşları, qazilər və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər leytenant Samir Əliyevin Azərbaycanın şanlı tarixini yazmış qəhrəmanlardan biri olduğunu, onun kimi cəsur Azərbaycan əsgər və zabitlərinin döyüş meydanında düşmənə layiqli dərs verərək, onları torpaqlarımızdan qovduqlarını bildiriblər. Qeyd olunub ki, Vətənimizin bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi



xalqımızın qəlbində daim yaşayacaq. Bildirilib ki, bu gün şəhid ailələri və qazilər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar.

# Şimkənddə "Qardaşlaşmış Qarabağ məktəbləri" layihəsi çərçivəsində IV Yay düşərgəsinin açılışı olub





**Qazaxıstanın Şimkənd şəhərində "Qardaşlaşmış Qarabağ məktəbləri" layihəsi çərçivəsində IV Yay düşərgəsinin açılış mərasimi keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, mərasimdə Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktorunun müavini Şahin Camalov layihənin yaranması və əhəmiyyəti, bu günə qədər keçirilmiş düşərgələr, iştirakçılar barədə məlumat verib, keçən il Azərbaycanda baş tutmuş III Qış düşərgəsi barədə maraqlı məlumatları diqqətə çatdırıb. O, həmçinin ölkəmizin ərazi bütövlüyünün bərpası zamanı şəhidlik zirvəsinə ucalmış qəhrəman Vətən oğullarının bizlərə əmanət qoyduğu övladlarına dövlət qayğısından danışıb, adıçəkilən düşərgənin bunun nəticəsi olduğunu qeyd edib.

Daha sonra layihənin müəllifi "İsveçrə Azərbaycanlılarının Mədəniyyət Mərkəzi"nin rəhbəri, həmçinin düşərgənin təlimçisi Qasım Nəsirov, "ZƏFƏR" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin nümayəndəsi Aygün Ramaldanova layihə və düşərgə barədə çıxış edib, iştirakçılara öz tövsiyələrini veriblər.

"Xarıbülbül" Qarabağ Etnomədəni Birliyinin sədri Ramilə Mustafayeva Azərbaycan Diasporuna Dəstək Fonduna bu cür əhəmiyyətli layihəni onun rəhbərlik etdiyi təşkilatla birlikdə keçirdiyi üçün minnətdarlığını bildirib.

Açılış mərasimi incəsənət ustalarının ifasında bədii hissə ilə davam edib.

Düşərgədə Qazaxıstanda fəaliyyət göstərən "Xarıbülbül" Qarabağ Etnomədəni Birliyinin "Həftəsonu Qarabağ məktəbi"ndən 10 və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası zamanı müxtəlif vaxtlarda şəhid olmuş qəhrəmanlarımızın 10 övladı iştirak edir. "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" Sərəncama uyğun olaraq "Azərbaycandan Yaşıl Dünya Naminə" devizi altında təşkil edilən düşərgəni Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi ilə "ZƏFƏR" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və Qazaxıstan Respublikası "Qarabağ" Azərbaycan Etnomədəni Birliyi birgə keçirir.

Xatırladaq ki, düşərgənin 1-ci hissəsi 2023-cü il dekabrın 21-27-də Bakı şəhərində təşkil olunub.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 13.08.2024-cü ildə gün ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# "Yay Fest" çərçivəsində COP29 könüllüləri üçün düşərgə təşkil edilib





**Azərbaycanın ən böyük gənclər festivalı olan "Yay Fest" davam edir. Festivalın növbəti - dördüncü həftəsi "COP həftəsi" adlandırılaraq COP29 könüllüləri üçün təşkil olunub.**



Həftə ərzində könüllülər COP prosesləri, ətraf mühitin mühafizəsi və iqlim problemlərinin həllində gənclərin rolu kimi mövzuları əhatə etməklə müxtəlif "yaşıl" təşəbbüslər və interaktiv fəaliyyətlərdə iştirak ediblər. Bu barədə AZƏRTAC-a COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən məlumat verilib. Avqustun 5-9-da təşkil olunan düşərgədə ümumilikdə 230-a yaxın COP29 könüllüsü iştirak edib. Şamaxıda təbiət qoynunda təşkil edilən tədbirdə könüllülər COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssislərinin keçirdikləri interaktiv təlimlərdə iştirak edib, eləcə də müxtəlif praktiki məşğələlərə qatılaraq təcrübələrini artırmaq imkanı qazanıblar. Düşərgənin zəngin təlim proqramı gənclərin iqlim problemlərinə həssaslığının artırılmasına, ekoloji və COP prosesi barədə maarifləndirilməsinə yönəlib, eləcə də dayanıqlı davranışlarının formalaşmasını əhatə edib.

Düşərgə ərzində IDEA İctimai Birliyi tərəfindən təşkil olunan "Təbiət naminə" interaktiv sessiyada Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev gənclərin ətraf mühitə məsuliyyətli yanaşmasının kollektiv səylərə töhfəsindən bəhs edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması və cari ildə ölkəmizin COP29 kimi mötəbər tədbirə evsahibliyi etməsi nəzərə alınaraq, "Yay Fest"in builki düşərgələrində ekologiya, iqlim dəyişmələri, ətraf mühitin mühafizəsi və bu problemlərin aradan qaldırılmasında gənclərin rolu, o cümlədən COP29 kimi mövzulara üstünlük verilir. "Birlikdə daha yaşıl gələcəyə!" şüarı altında baş tutan builki festival Azərbaycan Gənclər Fondunun dəstəyi, IDEA İctimai Birliyi, COP29 sədrliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, "CAVAN" Gənclər Hərəkatı İctimai Birliyi və "Gənc Könüllülər" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilir. Səkkiz düşərgədən ibarət olan və iki ay davam edəcək festivala ümumilikdə 2 mindən çox gənc qatılacaq.

# Yağış yağacaq, dolu düşəcək, dağ çaylarından daşqın və sel keçəcək

**Avqustun 10-u gündüz dağlıq ərazilərdə, avqustun 11-13-də isə bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ayrı-ayrı yerlərdə (Qarabağ və Şərqi Zəngəzur, Daşkəsən-Gədəbəy, Qazax-Gəncə, Balakən-Şəki, Dağlıq Şirvan, Quba-Qusar, Mərkəzi Aran) yağıntının leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var.

Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimal olunur.

## ALLAH RƏHMƏT ELƏSİN!

Rüstəm Rüstəmov, Abid Əliyev, Cavid Əsədov, Ayaz və Əlikram Qasımovlar və Rafiq Hüseynov SOCAR-ın Təhlükəsizlik İdarəsinin əməkdaşı Elxan İlyasova əzizi

**ELDAR BALASI OĞLU RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qambay Muradov, Azər Baxışov, Elxan Behbudov, Rza İsmayılov, Umud Xanlarov, İlham Həmidov və İlham Həsənov SOCAR-ın Təhlükəsizlik İdarəsinin əməkdaşı Elxan İlyasova əzizi

**ELDAR BALASI OĞLU RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3855
Sifariş 1760

Qiyməti 60 qəpik